www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 avqust 2025-ci il Cümə № 138 (8748) Qiymətı 60 qəpik

**Xəbər**

## Azərbaycana dost olmayan ölkələrin siyahısı

yazısı səh.6-da

**Gündəm**

### Yəhudi dindarların Bakıya toplaşmaq qərarı



Avropalı ravvinlərin ölkəmizə gəlməsi "İbrahim sazişi"nə qoşulmağımızı sürətləndirə bilər

yazısı səh.4-də

### AZAL təyyarəsi ilə bağlı yekun hesabat

yazısı səh.4-də

### ABŞ-la strateji müttəfiqlik sazişi gündəmdə

yazısı səh.5-də

### İran Xəzərin bölünməsi sənədini qəbul etmir

yazısı səh.7-də

### Bakı-Tiflis qatarının sirri açılmır

yazısı səh.7-də

### Bakıda açıq havada işlər dayandırılır?

yazısı səh.10-da

### "Euronews": "Rusiyadan uzaqlaş..."

yazısı səh.8-də

### Şəmkirdə 7 nəfərin sonunu gətirən qəzada şok detal

yazısı səh.10-da

### "Putin öz məqsədlərindən əl çəkməyib" - ISW

yazısı səh.11-də

### Ölkəni ciddi quraqlıq təhlükəsi gözləyir

yazısı səh.12-də

### "Çirkli pulları yuyanlar" üçün kabus kimi qanun

yazısı səh.13-də

### Azərbaycanın nə qədər taxıl ehtiyatı var?

yazısı səh.15-də

# QAFQAZA SÜLH AMERİKA SAATI İLƏ GƏLİR

Prezident İlham Əliyevi hərbi hava bazasında rəsmi şəxslər qarşıladı; Vaşinqtonda bu sənədlərin imzalanması gözlənilir; Tramp sülh sazişini Moskvadan necə qoruyacaq?



yazısı səh.9-da

## Yeni nazir təyinatı gözləntisi - kim daha şanslıdır?

Ekologiya və təbii sərvətlər naziri postuna üç namizəd göstərilir, biri parlamentdəndir - iki deputatdan fərqli rəy

yazısı səh.3-də



*Maksim Kalaşnikov*:

### "Rusiyanı Cənubi Qafqazdan süpürüb atırlar"

yazısı səh.5-də



Eldar Mahmudov

### Londonda Mahmudovlarla bağlı yeni pul qalmaqalı

yazısı səh.13-də



İlqar Mustafayev

### "Ağ şəhər"də 7 lüks mənzili və daha nələr...

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# Fransa səfiri Bakını tərk edib


Ann Buayon

Fransanın Azərbaycandakı səfiri Ann Buayonun məsləhətləşmələr üçün geri çağırıldığı haqda məlumatlar yayılıb.

Fransanın Azərbaycandakı səfirliyi bu xəbərə reaksiya verib. Bildirilib ki, səfir hazırda Fransada məzuniyyətdədir və avqustun 24-də Bakıya qayıdacaq. "Onun geri qayıtma tarixi və ölkədə olmadığı barədə Azərbaycan hakimiyyətinə məlumat verilib. Onun növbəti missiyasının sonu Fransa diplomatik personalının adi rotasiya cədvəlinə uyğundur", - deyə səfirlikdən bildirilib.

Qeyd edək ki, səfirlik bir neçə gün əvvəl yaydığı açıqlamada yaxın müddətdə Ann Buayonun səlahiyyət müddətinin başa çatacağını bəyan etmişdi. Səfirin Azərbaycanı tərk edəcəyi tarixin hələlik müəyyən edilmədiyi qeyd olunub.

Xatırladaq ki, Fransa səfirinin bu ilin iyununda Şuşaya dəvətsiz səfər etməsi müzakirələrə səbəb olmuşdu.



## Artur Rasi-zadə: "Axmaq söhbətdir..."

**Sabiq baş naziri Artur Rasi-zadə Xalq yazıçısı Elçin Əfəndiyevin vida mərasiminə qatılmayıb, bu isə müzakirələrə səbəb olub.**

Manset.az" məsələ ilə bağlı A.Rasi-zadədən açıqlama alıb.

O bildirib ki, səhhətindəki problemlərlə əlaqədar mərasimdə iştirak edə bilməyib: "Mən güclə beş addım atıram. Qan təzyiqim yüksəkdir, mənim üçün bu istilərdə çölə çıxmaq çox çətindir. Elçinin həyat yoldaşı ilə danışdım, başsağlığı verdim. Səhhətimlə bağlı vida mərasiminə getməmişəm. Elçin Əfəndiyevlə çox yaxşı münasibətim olub. Onun kiçik qızı ilə nəvəm rəfiqədir. Yanıma da gəlmişdilər. Bu cür iddialar əsassızdır, boş, axmaq söhbətlərdir. İnsanıq, xəstə ola bilərik, 90 yaşım var. Başqa nə ola bilər ki? Mənim yeganə qızım da, nəvəm də orada iştirak edib. Mərasimə əklil də göndərmişəm".

Xatırladaq ki, tanınmış yazıçı, ictimai-siyasi xadim, uzun illər Baş nazirin müavini vəzifəsində çalışmış Elçin Əfəndiyev iyulun 3-də vəfat edib.

Qeyd edək ki, Elçin Əfəndiyev 1993-cü ildən 2018-ci ilə qədər Azərbaycan Baş nazirinin müavini vəzifəsində çalışıb. O, 1996-cı ildən ölkənin sabiq baş naziri Artur Rasi-zadə ilə birgə işləyib.

## Bəzi reyslər ləğv edilir



**Bakı-Keşlə sahəsində aparılan təmir işləri ilə əlaqədar olaraq, avqust 7-də Abşeron dairəvi dəmir yolu marşrutu üzrə axşam saatlarına təyin olunan bəzi reyslər ləğv edilir.**

Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib.

Məlumata əsasən, saat 17:47-də Bakı-Xırdalan, 17:50-də Sumqayıt-Bakı (Xırdalan istiqaməti ilə), 18:10-da Bakı-Sumqayıt (ekspres), 18:20-də Xırdalan-Bakı, 19:02-də Sumqayıt-Bakı (ekspres) və 19:27-də Sumqayıt-Bakı (Xırdalan istiqaməti ilə) reysləri ləğv olunur.

"Təmir işləri ilə əlaqədar bəzi reyslərdə qısamüddətli gecikmələr müşahidə oluna bilər. Sərnişinlərdən müvəqqəti narahatlığı anlayışla qarşılamalarını xahiş edirik", - qurumdan bildirilib.

## AFFA-da görüş



**AFFA-nın Yarışların Təşkili Departamentinin əməkdaşları ilə liqaların 2025/2026 mövsümündə Bakı və Abşeron zonası üzrə iştirak edəcək komandaların nümayəndələri arasında görüş keçirilib.**

"Report" milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, qurumun inzibati binasında baş tutan görüşdə liqalarda növbəti mövsümə dair fikir mübadiləsi aparılıb, təkliflər müzakirə olunub.

Klublar tərəfindən təqdim olunan təkliflərin nəzərdən keçiriləcəyi, məqsədəuyğun hesab edilənlərin növbəti mövsüm tətbiqi məsələsinə baxılacağı bildirilib.

## Kənd qeydiyyatında olan uşaqlar şəhərdə təhsil ala bilərmi?

**Kənd qeydiyyatında olan uşaqları şəhərdəki məktəblərə qoymaq mümkündür.**

Bunu MÜTDA-nın Ümumi təhsilin təşkil şöbəsinin aparıcı məsləhətçisi Aidə Əsgərli deyib.

O bildirib ki, ilkin qaydada prioritet tətbiq edilən məktəblər var idi, bu vaxtı qeydiyyat ünvanı əsasında qəbul həyata keçirilirdi.

"Yəni qeydiyyatdan keçən uşaq və ya valideyinin qeydiyyat ünvanı, seçilən məktəbin ünvanı ilə üst-üstə düşməli idi. İndiki qaydada isə bu sərbəst formada həyata keçirilir. Boş yer olduğu halda valideyin daxil olub həmin məktəb üçün sorğusunu yerləşdirə bilər",- deyə o əlavə edib.



## Cahangir Əsgərov İspaniyaya köçüb?

**AZAL-ın sabiq prezidenti Cahangir Əsgərovun Azərbaycan banklarının birində 170 milyon manat depoziti olduğu üzə çıxıb.**

Bu barədə "Unikal" məlumat yayıb. Məlumata görə, həmin məbləğ bundan əvvəl Cahangir Əsgərovun mərhum həyat yoldaşı Zərifə Həmzəyevanın adına olub.

Z.Həmzəyevanın vəfatından sonra AZAL-ın keçmiş prezidenti həmin pulu öz adına rəsmiləşdirib. Hazırda İspaniyada yaşayan C.Əsgərov hər ay həmin məbləğdən 1 milyon 200 min manat gəlir əldə edir.

Xatırladaq ki, Zərifə Həmzəyeva bu ilin yanvarında dünyasını dəyişib. Z.Həmzəyeva genetika və tibbi profilaktika üzrə elmlər doktoru, "Gazelli Group" şirkətinin təsisçisi və prezidenti, "Premium Bank" ASC-nin əsas səhmdarı və "Caspian Energy Club"un İdarə Heyətinin üzvü olub.

## Havanın temperaturu 3-5 dərəcə aşağı enəcək

**Uzun müddət davam edən isti hava dalğasından sonra avqustun 8-i axşamdan şimal-qərb küləyinin arabir güclənəcəyi, 12-dək davam edəcəyi gözlənilir.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, həftənin sonu, gələn həftənin ilk günlərində havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

Küləyinin güclənməsi ilə əlaqədar Abşeron çimərliklərində istirahət edən əhalinin ehtiyatlı olması tövsiyə olunur. Dəniz suyunun temperaturu 9-10-11-də 27-29° isti olacaq.

Qeyd edək ki, beynəlxalq təcrübədə havanın gündəlik maksimum temperaturunun orta aylıq maksimum temperaturdan 5 dərəcə və daha yüksək olduğu müddət 5 gün və daha çox davam edərsə, bu meteoroloji hadisə isti hava dalğası adlanır.




## "Avroviziya 2026": 19 ölkə bəllidir

**Avstriyada keçiriləcək "Avroviziya 2026" beynəlxalq mahnı müsabiqəsində iştirakını təsdiqləyən ölkələrin siyahısı yenilənib. Yarışa qatılmağa ev sahibi ilə yanaşı 18 ölkənin razılıq verdiyi bildirilir: Albaniya, Almaniya, Böyük Britaniya, Danimarka, Finlandiya, İspaniya, İsrail, İsveç, İsveçrə, Kipr, Latviya, Litva, Lüksemburq, Malta, Niderland, Norveç, Serbiya, Yunanıstan.**

Azərbaycan indiyədək 17 yarışa qatılıb, 2008 və 2019-cu illərdə 8-ci yeri, 2009-cu ildə 3-cü yeri, 2010-cu ildə 5-ci yeri, 2011-ci ildə 1-ci yeri, 2012-ci ildə 4-cü yeri, 2013-cü ildə 2-ci yeri, 2014-cü ildə 22-ci yeri, 2015-ci ildə 12-ci yeri, 2016-cı ildə 17-ci yeri, 2017-ci ildə 14-cü yeri, 2021-ci ildə 20-ci yeri, 2022-ci ildə 16-cı yeri tutub, 2018, 2023, 2024 və 2025-ci illərdə yarımfinalda ələnib.

## Tanınmış idmançı FHN-də vəzifəyə təyin olundu

**Məşhur idmançıya Fövqəladə Hallar Nazirliyində (FHN) vəzifə verilib.**

Cebheinfo.az xəbər verir ki, poverliftinq üzrə dünya və Avropa çempionu olmuş Rövşən Məqsəd oğlu Xəlilov FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin döyüş və xüsusi hazırlıq idarəsinin fiziki hazırlıq şöbəsinin rəis müavini vəzifəsinə təyin olunub.

Qeyd edək ki, poverliftinq üzrə altıqat dünya və üçqat Avropa çempionu olmuş R.Xəlilov Azərbaycan Respublikasının fəxri idman ustasıdır.

## Mərkəzi Parkda qapalı avtodayanacaq təşkil ediləcək

**Hazırda Bakıda Mərkəzi Parkın ərazisi təxminən 36 hektar təşkil etsə də, dördüncü hissədə parka metronun "Nizami" stansiyasının ətrafında 21 hektara yaxın ərazi də əlavə olunacaq.**

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat katibi Ramiz İdrisoğlu deyib.

O bildirib ki, həyata keçirilən dördüncü mərhələ parkın ən geniş əhatəli və konseptual baxımdan zəngin hissəsi hesab olunur.

"Nəqliyyat axınının optimallaşdırılması məqsədilə parkın ərazisində qapalı avtodayanacağın təşkili nəzərdə tutulur", - komitə rəsmisi vurğulayıb.

## Astarada balıqçı dənizdə boğularaq öldü



**Astara rayon sakini dənizdə boğulub. Şahağacı kənd sakini, 1963-cü il təvəllüdlü Xanoğlan Museyib oğlu Əsədullayev günorta saatlarında çimmək üçün evlərinin yanındakı çimərliyə gedib. Bir az dərinə üzən X.Əsədullayev dənizdə boğularaq ölüb.**

O, ətrafdakıların köməyi ilə batdığı yerdən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. X.Əsədullayin bacısı bildirib ki, qardaşı uzun müddət peşəkar balıqçı olub və son günlər taqətsiz, halsız idi. Meyit daxili və xarici müayinə olunması üçün Məhkəmə Tibbi Ekspertiza və Potoloji Anatomiya Birliyinin Lənkəran rayonlararası zona mərkəzinə aparılıb.

MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# Yeni nazir təyinatı gözləntisi - kim daha şanslıdır?

## Ekologiya və təbii sərvətlər naziri postuna üç namizəd göstərilir, biri parlamentdəndir - iki deputatdan fərqli rəy




**Azərbaycanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəhbərsiz fəaliyyətini davam etdirir. Ancaq rəsmi açıqlama olmasa da, nazirliyə yeni rəhbər təyinatı gözlənilir. Yada salaq ki, uzun illər nazir olan Muxtar Babayev Bakıda keçirilən uğurlu COP29-dan sonra Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi təyin edilib. O vaxtdan nazir postu vakant qalıb.**

Yada salaq ki, Azərbaycan Prezidentinin 23 may 2001-ci il tarixli fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb.

Qeyd edək ki, Muxtar Babayevdən əvvəl ekologiya və təbii sərvətlər naziri postunu Hüseynqulu Bağırov tutub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsas səlahiyyətləri isə bunlardır: ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə, ekoloji təhlükəsizlik, meşə təsərrüfatı, su ehtiyatlarının qorunması və s.

Modern.az-a daxil olan məlumata görə, yeni ekologiya və təbii sərvətlər naziri parlamentdən gətiriləcək. Saytın yazısında iddia olunur ki, həmin şəxs müasir yanaşmaları ilə seçilir və siyasi dairələrin etimadını qazanıb. Amma adı hələlik gizli saxlanılır. Parlamentdən yüksək vəzifəyə təyinat yenilik deyil. Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Diasporlarla iş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, sabiq ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev vaxtilə vəzifəyə təyin olunmuş deputatlardır.

Başqa bir versiyaya görə, hazırda nazirlikdə çalışan müavinlərdən biri rəhbərliyə gətirilə bilər. Çünki bu şəxslər nazirlik sisteminə yaxşı bələddir və çevik idarəçilik təcrübəsi var. İnstitusional davamlılıq baxımından bu seçim məntiqli görünür. Məlumat üçün deyək ki, hazırda ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılovdur. Rauf Hacıyev, Vüqar Kərimov və Umayra Tağıyeva isə nazir müavinləridir.

Siyasi dairələrdə yayılan digər versiya isə sürpriz ehtiva edir. Belə ki, tamam fərqli sahəni təmsil edən bir dövlət qurumunun rəhbəri nazirlik üçün nəzərdən keçirilir. Bu hal dəyişiklik rüzgarlarının daha geniş miqyasda əsdiyini göstərir. Qeyd edək ki, mediada yayılan xəbərlərə görə, payıza doğru iqtidarda kadr dəyişiklikləri ilə yanaşı nazirlik və komitələrdə struktur dəyişiklikləri gözlənilir. Bəzi nazirliklərin, komitə və xidmətlərin birləşdiriləcəyi iddia edilir. Bundan başqa, Azərbaycanda yerli icra hakimiyyətlərində genişmiqyaslı struktur islahatlarının aparılması da yenə gündəmdədir. Belə ki, müasir idarəetmə tələblərinə cavab verməyən bəzi idarələrin ləğvi, digərlərinin isə yenidən təşkili planlaşdırılır. Nəzərdə tutulan islahatlarda məqsəd idarəetmədə çevikliyin və effektivliyin artırılmasıdır. Müvafiq məsələ ilə bağlı rəsmi qərarların yaxın aylarda açıqlanacağı gözlənilir.

2025-ci ilin ilk həftəsindən etibarən Azərbaycan hökumətində bir sıra dəyişikliklər baş verib. Belə ki, 19 il maliyyə naziri vəzifəsində çalışan Samir Şərifov baş nazirin müavini təyin edilib. Prezident İlham Əliyev bu barədə müvafiq sərəncamdan təxminən bir ay sonra əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevi vəzifəsindən azad edərək maliyyə naziri təyin edib. İmzalanan digər sərəncamla isə Sahil Babayevi onun müavini Anar Əliyev əvəzləyib.

**Böyük Azərbaycan Partiyasının (BAP) sədri, deputat Elşad Musayev “Yeni Müsavat”a dedi ki, bu nazirlikdə vaxtilə Firdovsi Əliyev çalışırdı, rayonlara gedəndə onun fəaliyyətini gördü:** “Mən obyektiv yanaşmanın tərəfdarıyam, onun işlədiyini müşahidə edirdim. İndi isə Azərbaycanda bu qədər komitələrə, nazirliklərə ehtiyac yoxdur. Sözügedən nazirliyin də bir strukturda birləşməsi daha yaxşı olardı. Çünki büdcəyə də yükdür. Struktur islahatları nəticəsində daha çevik, mobil iş qurmaq mümkündür. Azərbaycanda bu qədər qurumların olmasına zərurət görmürəm. Onlar bir strukturun tərkibində də faydalı ola bilər. Eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bir strukturun tərkibinə verilməsini təklif edərdim. Ancaq sözsüz ki, dövlət başçısının və hökumətin mövqeyi fərqli ola bilər. Sadəcə, dünya təcrübəsində də görmək olar ki, artıq çoxlu nazirliklər, komitələr saxlamırlar, xərcləri də azaldırlar”.

**Deputat Arzuxan Əlizadə “Yeni Müsavat”a bildirdi ki, idarəetmə sistemi, islahatlara gedilməsi ilə bağlı zaman-zaman təkliflər irəli sürülüb:** “Bizim tərəfimizdən də müxtəlif təkliflər olub. Ancaq konkret olaraq bu nazirliyin birləşdirilməsi, yaxud həmin quruma yeni kadr təyinatı üçün mütəxəssislər səviyyəsində müzakirələrə ehtiyac var. Ümumilikdə isə qurumlarda, nazirliklərdə daha yığcam komanda olması daha məqbuldur. Yeni struktur islahatları ilə büdcəyə qənaət edilmiş olur”.

**Deputat qeyd etdi ki, əslində ayrı-ayrı nazirliklərin fəaliyyəti uyğun görünə bilər, amma bir əldə birləşməsi təcrübəsi də var:** “Məsələn, Gənclər və İdman Nazirliyi yaradılıb. Bundan əlavə, gömrük, vergi və maliyyənin bir strukturda birləşməsi təklifləri səslənib. Bütün bunlar kompleks müzakirələr tələb edir. Ancaq şəxsi qənaətim odur ki, struktur islahatları üçün mütəxəssislər tərəfindən təkliflər paketi hazırlana bilər. Təbii ki, son sözü prezident deyir. Sadəcə, zaman keçdikcə islahatlara gedilməsi müsbət effektini verir, o baxımdan, reformaların aparılması hər zaman vacibdir”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## Nazir müavini niyə təyinatdan bir il sonra işdən çıxarıldı?


Rəşad Xudiyev

**Rəşad Xudiyev Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilib. “Şərq Qapısı” xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri sərəncam imzalayıb.**

R.Xudiyev ötən ilin mayında bu vəzifəyə təyin edilmişdi.

“Azpolitika” xəbər verir ki, Rəşad Xudiyev 21 oktyabr 1977-ci ildə Naxçıvan şəhərində anadan olub. 1984-1994-cü illərdə Naxçıvan şəhəri 7 nömrəli orta məktəbdə təhsil alıb. 1994-1998-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə əyani, 2007-2010-cu illərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə qiyabi təhsil alıb.

Rəşad Xudiyev 29 noyabr 2017-ci ildə Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm nazirinin müavini təyin edilib.

2019-2021-ci illərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdiri, həmçinin 2020-2021-ci illərdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru olub. 2021-2024-cü illərdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində çalışıb.

27 may 2024-cü ilin may ayında o, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsinə təyin olunub. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir, üç övladı var.

# “Ağ şəhər”də 7 lüks mənzili və daha nələr…

## Bulvar İdarəsinin həbsdəki sabiq sədrinin əmlakları üzərində həbs qoyulub, müsadirə də oluna bilər

**“Dənizkənarı Bulvar İdarəsi” Publik Hüquqi Şəxsin İdarə Heyətinin sabiq sədri, eyni zamanda Bayraq Meydanının keçmiş rəisi İlqar Mustafayev, onun köməkçisi Rəşad Bədəlov və “GİRASOL” MMC-nin direktoru Fuad Babayevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Dənizkənarı Bulvar İdarəsinin İdarə Heyətinin sabiq sədrinin böyük “əmlak imperiyası” varmış. 12 milyonluq korrupsiya ittihamı ilə həbs edilən eks-məmurun paytaxtın bahalı və prestijli ərazilərində yerləşən mülkləri üzərinə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təqdimatı ilə həbs qoyulub. Bu qərar dövlətə dəymiş ziyanın ödənilməsinin təminatı məqsədilə verilib.

Daşınmaz əmlaklar arasında Bakının mərkəzi küçələrində yerləşən mənzillər, böyük obyektlər və lüks bağ evləri yer alır.

Xətai rayonunda - “Ağ şəhər”də, Xudu Məmmədov və Nəcəfqulu Rəfiyev küçələrində 7 lüks mənzil;

Elə həmin rayonda, Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsində yerləşən, sahəsi 715,3 kv/m olan böyük obyekt;

Səbayel rayonunda - Üzeyir Hacıbəyli və Neftçi Qurban Abbasov küçələrində 3 mənzil;

Xəzər rayonu, Şüvələn qəsəbəsi - biri 875,6 kv/m sahəyə malik olmaqla 2 villa tipli bağ evi;

Pirallahı rayonunda - bağ evi;

Xəzər və Qusar rayonlarında - torpaq sahələri.

Bu əmlakların hamısı artıq dövlət nəzarətindədir. Onların gələcək hüquqi taleyi Bakı Ağır Cinayətlər Məhkəməsində həll olunacaq.

İlqar Mustafayev 2015-ci il mayın 15-də Prezident İlham Əliyevin sərəncamı ilə Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin rəisi təyin edilib. O, 2016-cı ildə yenidən formalaşdırılan Dənizkənarı Bulvar İdarəsinin rəisi vəzifəsinə gətirilib.


İlqar Mustafayev

“Dənizkənarı Bulvar İdarəsi” Publik Hüquqi Şəxsin fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən daxil olmuş materiallar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb. İbtidai istintaq zamanı müəyyən edilib ki, İlqar Mustafayev vəzifədə olduğu dövrdə köməkçisi Rəşad Bədəlov, “GİRASOL” MMC-nin direktoru Fuad Babayev və digərləri ilə birlikdə cinayət əlaqəsinə girərək rəsmi sənədlərə bilərəkdən yalan məlumatlar daxil ediblər. Bununla da quruma məxsus qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, kommersiya obyektlərinin fəaliyyətinin təşkili, gəmi gəzintiləri və digər fəaliyyətlərdən əldə edilmiş 12 milyon manatdan artıq vəsait mənimsənilib.

Bundan başqa, İlqar Mustafayevin 1 milyon 800 min manatdan çox vergi borcunu dövlət büdcəsinə ödəməkdən yayındığı, həmçinin cinayət yolu ilə əldə etdiyi 10 milyon manatdan artıq vəsaiti özü və yaxınlarının adına əmlaklar almaqla leqallaşdırdığı bildirilir.

Toplanmış sübutlar əsasında İlqar Mustafayevə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda mənimsəmə), 193-1.3.2 (xeyli miqdarda cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma), 213.3 (xüsusilə külli miqdarda vergidən yayınma), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) maddələri ilə, Fuad Babayev və Rəşad Bədələva isə 179.4, 308.2 və 313-cü maddələrlə ittiham elan edilib.

Məhkəmənin qərarı ilə İlqar Mustafayev barəsində həbs-qətimkan tədbiri, digər təqsirləndirilən şəxslər barəsində isə polis nəzarətinə verilmə tədbiri seçilib.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# Yəhudi dindarların Bakıya toplaşmaq səbəbi

## Avropalı ravvinlərin ölkəmizə gəlməsi “İbrahim sazişi”nə qoşulmağımızı sürətləndirə bilər; Azərbaycan yeni üçlükdə...



**Avropalı ravvinlər bu payızda Azərbaycanda toplanaraq, “İbrahim sazişi”nə Azərbaycanın da daxil olmasını müzakirə edəcəklər. Bildirilir ki, payızda Bakıda Avropa ravvinlərinin növbəti yubiley konfransına qitənin hər yerindən 500-dən çox ravvinin iştirakı gözlənilir. “Yeni Müsavat” xəbər verir ki, forumun gündəliyinə İsrailin dörd ərəb ölkəsi ilə sülh müqavilələri imzaladığı “İbrahim sazişi”nin genişləndirilməsi də var. Bu dəfə müzakirə Azərbaycanın onlara qoşulmasının mümkünlüyü, eləcə də dini etiqad azadlığının təşviqi və Avropada artan antisemitizmlə mübarizəyə həsr olunacaq.**

Modern.az xəbər verir ki, beynəlxalq tədbir noyabrın 12-15-də Bakıda təşkil olunacaq və konfransda Prezident İlham Əliyevin iştirakı gözlənilir. Avropalı ravvinlər həmçinin dağ yəhudilərinin böyük icmasının əsrlər boyu kompakt şəkildə yaşadığı Qubaya səfər edəcək. Bu ilin əvvəlində Prezident İlham Əliyevlə görüşən Avropa Ravvinləri Konfransının prezidenti ravvin Pinças Qoldşmidt deyib: “Azərbaycan yəhudi xalqı üçün xüsusi yaddaşı olan yerdir və dünyada ən nadir yəhudi icmalarından birinə ev sahibliyi edir”.

Qeyd edək ki, Avropada əsas pravoslav ravvinlər ittifaqı olan təşkilat Avropadakı icmalardan 700-dən çox dini lideri birləşdirir. 1956-cı ildə qurulan təşkilat Avropadakı yəhudilərin hüquqlarını müdafiə etmək üçün çalışır, din azadlığı və yəhudi icmaları ilə bağlı məsələləri müzakirə edir.

“İbrahim sazişi”nə gəlincə, bəllidir ki, 2020-ci ildə rəsmi olaraq tətbiq olunmağa başlamış ərəb dövlətləri və İsrail arasında barışığı ehtiva edən plandır. Planın iki əsas hissəsi var, birincisi, Fələstin münaqişəsinin həlli və yeni Fələstin dövlətinin yaradılması, mövcud torpaqların BMT qərarlarından fərqli şəkildə, daha çox İsrailin xeyrinə bölüşdürülməsidir. İkinci hissəsi isə ərəb region ölkələri ilə İsrail arasında barışıq prosesidir. Azərbaycanın bu sazişə qoşulacağı barədə iddialar təsadüfi deyil.

Bakı ilə Tel-Əviv arasında uzun illərdir enerji, hərbi və texnoloji sahələrdə sıx əməkdaşlıq mövcuddur. Ona görə də İsraillə diplomatik münasibətlərin rəsmi şəkildə tam tanınması əslində artıq mövcud reallığın hüquqi çərçivəyə salınması ola bilər. Sazişə qoşulacağı təqdirdə 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilən və Birləşmiş Ştatların Azərbaycana birbaşa yardım göstərməsinə məhdudiyyətlər qoyan “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişin aradan qaldırılmasının mümkünlüyü haqda da danışılırdı.

Lakin bu məsələ təkcə Azərbaycan-İsrail münasibətləri ilə yekunlaşmır. Burada İranla bağlı bir sıra regional amillər də var. Uzun müddətdir ki, Tel-Əvivlə Ankara arasındakı münasibətlər soyuqdur. Hətta iki ölkə arasındakı əlaqələrdə müəyyən kəskin ritorika, söz döyüşü bir-birini əvəzləyir. Əgər payızadək Ankara-Tel-Əviv münasibətləri normallaşmasa, Bakının “İbrahim sazişi”nə “hə” deyəcəyini gözləməyə dəyməz. Amma istənilən halda, Avropa ravvinlərinin yubiley konfransını paytaxtımızda keçirmək qərarı Azərbaycana olan etimadın göstəricisi olacaq.

Bəs Türkiyə və İranın mövqeyi Azərbaycanın qərarına təsir edə bilərmi? Bu, qardaş ölkə ilə münasibətləri soyudacaqmı, yoxsa Ankara Bakını anlayışla qarşılayacaq?

**Siyasi analitik Qədir Aslan** “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, hələ 2022-ci ildə Avrasiya regionunda olan İsrail səfirləri Azərbaycanda toplaşmışdı. Onun sözlərinə görə, o zaman 50-yə yaxın yəhudi diplomatın Bakıya gəlməsi ölkəmizə olan etimadın göstəricisi idi: “Bu da Azərbaycanın təhlükəsiz məkan olması ilə bağlı inam idi. Eyni zamanda onların gəlişi ölkəmizin nüfuzunun artmasına səbəb olmuşdu. Təsadüfi deyil ki, son həftələr İsrail-Suriya, İsrail-Türkiyə danışıqları da Bakıda keçirilib. Halbuki körfəz ölkələrinin birində də görüşə bilərdilər. Bu sadalanan nüanslar Azərbaycanın İsrailin olduğu sivil, qüdrətli düşərgədə beynəlxalq imicinin artmasına töhfə verir. Həmçinin zəmin yaradır ki, Azərbaycan "İbrahim sazişi"nə qoşulsun".

**Ekspertin fikrincə, istər bu təmaslar, yəni İsrailin Suriya və Türkiyə ilə Bakıda müzakirələri, istərsə ravvinlərin ABŞ liderinə müraciəti, istərsə də onların payızda gəlişi gözləntisi Azərbaycanı sürətlə Yaxın və Orta Şərq regionlarına inteqrasiya etdirir:** “Azərbaycan həmin bölgədən uzaqda olsa da, o regiona inteqrasiya olunmaqdadır. Buna da Türkiyədən və İrandan etirazlar var. Amma beynəlxalq münasibətlərdə daşlar yerindən elə oynayıb ki, yeni birliklər yaranır. Bu birliklər isə ənənəvi olmaya da bilər. Yəni tarixi, dini və etnik bağlılıq üzərindən yaranması şərt deyil. Ona görə tamamilə rəngarəng siyasi-hərbi, diplomatik palitra yaranır. Azərbaycanın "İbrahim sazişi"nə qoşulması prosesini də məhz Trampın tətikləməsi kontekstində dəyərləndirmək lazımdır. ABŞ lideri bu işi sürətləndirmək istəyir".

**Q.Aslan avqustun 8-də təmaslar zamanı “İbrahim sazişi” məsələsinə də toxunulacağını ehtimal edir**: “Sadəcə, buna qədər görüləcək işlər var. Türkiyənin və İranın yanaşması isə nəyisə dəyişməyəcək. Çünki Azərbaycan birliyi möhkəm təməllər üzərində qurub. Söhbət Azərbaycan, İsrail və Birləşmiş Ştatlar üçbucağından gedir. Bu üçlük regionda bir neçə problemin həllinə nail olub. Ötən il Azərbaycan Prezidenti keçmiş Ağ Ev rəhbəri Baydenə məktubunda qeyd etmişdi ki, bizim birgə səylərimiz regional məsələlərin həllində rol oynayıb. İndi də Azərbaycan güclü aktor kimi həmin üçlükdə iştirak etməlidir ki, dünyanın yeni nizamında yer alsın və bunu dəstəkləməyin tərəfdarıyam”.

Xatırladaq ki, bundan əvvəl Bakıda Qafqaz yəhudilərinin irsinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycan, İsrail, ABŞ, Fransa və digər ölkələrdən 60-dan çox alim-tədqiqatçı iştirak edib. Bundan əlavə, ravvinlər türk dövlətlərindən Azərbaycan, Qazaxıstan və Özbəkistanın bu razılaşmaya daxil edilməsini istəyirlər. Proseslərin gedişatı göstərir ki, bu ilin sonuna qədər ölkəmiz sözügedən sazişə qoşula bilər.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



# AZAL təyyarəsi ilə bağlı yekun hesabat

## Qazaxıstan rəsmisi sənədin nə zaman açıqlanacağını bilmir

**Qazaxıstan rəsmiləri yaxın aylarda “Azerbaijan Airlines” (AZAL) aviaşirkətinə məxsus təyyarənin Aktau hava limanı yaxınlığında baş vermiş qəzası ilə bağlı son hesabatı təqdim edəcəklər.**

“Teleqraf” xəbər verir ki, bu barədə Qazaxıstanın baş nazirinin müavini Kanat Bozumbayev mətbuat konfransında bildirib. O qeyd edib ki, hesabatın nə zaman açıqlanacağı dəqiq bilinmir. “İstintaqın təhlil mərhələsi yekunlaşır, indi yekun hesabatın hazırlanması mərhələsinə keçirik. Hesab edirəm ki, bir qədər səbirli olmaq lazımdır, bir neçə aydan sonra son hesabat təqdim olunacaq”, - ölkə rəsmisi vurğulayıb.

Xatırladaq ki, AZAL-a məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

Hadisədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün baş nazir Əli Əsədovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb.

Dövlət başçısı eyni zamanda qəzada həlak olan ekipaj üzvlərini - İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov, Hökumə Cəlil qızı Əliyevanı Azərbaycanın Milli Qəhrəmanı adı, xəsarət alan ekipaj üzvləri - Zülfiqar Sərdar oğlu Əsədov və Aydan Vaqif qızı Rəhimlini isə 1-ci dərəcəli “Rəşadət” ordeni ilə təltif edib.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 6-da təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşündə bəyan edib ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir.

Həmçinin qəza ilə əlaqədar Prezident İlham Əliyev dekabrın 26-sının Azərbaycanda matəm günü elan olunması barədə sərəncam imzalayıb.

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# ABŞ-la strateji müttəfiqlik sazişi gündəmdə

## Münasibətlərin yeni səviyyəyə qalxması üçün fürsət yaranıb, lakin Vaşinqton ilk növbədə “907-ci düzəliş”i ləğv etməlidir



**Azərbaycan və ABŞ arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi barədə müzakirə aparılıb. “Yeni Müsavat” bildirir ki, bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Emi Karlonla görüşüb. Görüşdə ölkəmizin ABŞ-la münasibətlərin inkişafına önəm verdiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan və ABŞ arasında iqtisadi-ticarət, enerji, investisiya, nəqliyyat-tranzit, sənaye və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük perspektivlər var.**

Bəllidir ki, 2021-ci ildə ermənipərəst Bayden administrasiyasının iqtidara gəlməsi ilə Azərbaycan-ABŞ münasibətlərində soyuqluq yaranmışdı.

Donald Trampın prezident seçkisində qələbə qazanması isə Amerika-Azərbaycan strateji əlaqələrində yeni mərhələ oldu. ABŞ-ın Azərbaycanın mühüm iqtisadi tərəfdaşı kimi iqtisadiyyatın şaxələndirilməsi istiqamətində səyləri dəstəkləmək, eləcə də ölkəmizlə iqtisadi əməkdaşlığı genişləndirmək niyyətində olması çox vacib və təqdirəlayiqdir. Şübhəsiz, Amerika şirkətlərinin Azərbaycanda fəaliyyətini genişləndirmək üçün ilk növbədə, ABŞ Konqresi Azərbaycanla bağlı “907-ci düzəliş”i ləğv etməlidir. Çünki bu, belə bir güclü, davamlı surətdə inkişaf edən, istər regional, istərsə də qlobal səviyyədə təhlükəsizliyə böyük töhfələr verən dövlətə qarşı ədalətsiz yanaşmadır.

Prezident İlham Əliyev bunu dəfələrlə bəyan edərək, həmin düzəlişin iki ölkə arasında tamhüquqlu əməkdaşlığa əngəl olduğuna diqqət çəkib. Üstəlik, düzəliş keçmiş Qarabağ münaqişəsinin başlanğıcında qəbul edilib və bu gün münaqişə nizamlanıb, düzəliş də öz mənasını itirib. Xatırladaq ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi keçmiş sovet respublikalarına dövlət yardımının göstərilməsini tənzimləyən Azadlığa Dəstək Aktı adlı qanun qəbul edib. “907-ci düzəliş”ə əsasən, ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərməsi qadağan edilib. “907-ci düzəliş” 2001-ci ildə Konqres tərəfindən Prezidentə verilən səlahiyyətlərə uyğun olaraq 2002-ci ildən etibarən hər il ABŞ Prezidenti tərəfindən dayandırılır.

Ümid etmək olar ki, Prezident İlham Əliyevlə bir gün sonra Ağ Evdə baş tutacaq görüşdə bu məsələlər də müzakirəyə açıq olacaq. Birləşmiş Ştatlar təkcə ikitərəfli münasibətlərə deyil, həm də regionda münaqişədən sonrakı reallığa, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə apardığı bərpa-quruculuq işlərinə mühüm töhfə verəcək, iqtisadi əməkdaşlıq genişlənəcək. Rəsmi Bakı Ağ Evdəki hakimiyyət dəyişikliyindən sonra ABŞ-la strateji tərəfdaşlıq sazişi imzalamağın mümkünlüyü haqda mövqe ifadə edib.

**“Yeni Müsavat”a mövzunu şərh edən siyasi ekspert Oqtay Qasımov bildirib ki, Azərbaycanla ABŞ arasında 90-cı illərdən mövcud olan münasibətlər sistemi son 5 ildə Bayden administrasiyası tərəfindən ciddi şəkildə korlanmışdı:** “Nəzərə alaq ki, məhz 90-cı illərdən bəri Azərbaycanla Birləşmiş Ştatlar arasında enerji sahəsində ciddi əlaqələr formalaşıb, müxtəlif layihələr Vaşinqtonun dəstəyi ilə həyata keçirilib. Xüsusən də Bakı-Tiflis-Ceyhan kəmərini qeyd etmək olar. Rusiya bu proyektə mane olmaq istəyirdi, ABŞ-ın dəstəyi layihənin işə düşməsinə təkan verdi. Həmçinin iki ölkə beynəlxalq terrorizmlə mübarizədə birgə iştirak ediblər, təhlükəsizlik məsələsində bir mövqedə olublar. Xatırladım ki, Əfqanıstanı ən sonuncu tərk edən azərbaycanlı sülhməramlılar olmuşdu. Hətta o zaman Bayden buna görə Bakıya təşəkkür etmişdi. Amma Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra Bayden iqtidarı bu reallığı həzm etmədi və birmənalı şəkildə ermənipərəst siyasət yürütdü. Bu da əlaqələrin korlanmasına gətirib çıxardı. Amma Azərbaycan bəyan edirdi ki, Tramp hakimiyyəti dönəmində korlanmış münasibətləri bərpa etmək mümkün olacaq. Artıq bunun ilkin işartılarını görmək mümkündür”.

**O.Qasımov vurğulayıb ki, ABŞ prezidentinin Novruz bayramı və Müstəqillik Günü ilə bağlı təbrik məktublarında artıq buna işarə edilmişdi:** “Habelə Trampın xüsusi nümayəndəsi Stiv Uittkof Bakıya gəlmişdi və yüksək səviyyəli danışıqlar aparılmışdı. Bu da göstərir ki, münasibətlərdə pozitiv inkişaf müşahidə olunur, hər iki tərəf də yaxınlaşmağa maraqlıdır. Ən nəhayət, Azərbaycan Prezidenti Vaşinqtonda səfərdədir və bu da ABŞ-la münasibətlərin inkişafına stimul olacaq. Amma strateji müttəfiqlik haqda danışmaq tezdir. Bunun üçün bütün şərtlər yetişməlidir. Əslində Azərbaycan strateji müttəfiqliyə tam hazırdır, amma yeni administrasiya uyğun görəcəksə, belə bir razılaşma ola bilər”.

**Ekspertin fikrincə, yeni administrasiya Azərbaycanın regionda rolunu obyektiv şəkildə qiymətləndirib bu yöndə addım ata bilər:** “Bunu həm də onların maraqları tələb edir. O halda, strateji müttəfiqliklə bağlı ciddi irəliləyiş görə bilərik. Xüsusən də Azərbaycanın Cənubi Qafqazda, Yaxın və Orta Şərqdə oynadığı rol ABŞ tərəfindən yüksək qiymətləndirilir. Türkiyə-İsrail, Suriya-İsrail görüşlərinin Bakıda təşkili də Tramp iqtidarını razı salan hadisələrdir. Hər bir halda, Bakı-Vaşinqton münasibətlərinin yeni səviyyəyə çıxacağını gözləməyə dəyər”.

**Professor Qabil Hüseynli isə deyib ki, strateji müttəfiqlik əlaqələrinin qurulması arzusunu daha əvvəl Azərbaycan rəhbərliyi dilə gətirib:** “Bunun üçün imkanlar var və ABŞ-ın bölgədəki maraqlarına da uyğundur. Azərbaycan ABŞ kimi fövqəlgüclə münasibətlərini ən yüksək səviyyəyə qaldırmaq istəyindədir. Ancaq bu münasibətlər periodik olmamalıdır. Yəni Trampdan sonra gələcək yeni prezident Azərbaycanla strateji əlaqələrə əhəmiyyət verməlidir. Ona görə də qarşıdakı dönəmdə irəliləyiş əldə etmək üçün daha sıx təmaslara, əməkdaşlığın genişləndirilməsinə ehtiyac var. Azərbaycan Birləşmiş Ştatların regionda ən yaxşı tərəfdaşı sayılmalıdır. Çünki Kosova və Əfqanıstanda sülhməramlılarımızın fəaliyyətini yada salmaq kifayətdir. Ona görə də strateji müttəfiqlik haqda sənəd imzalanmazdan əvvəl bədnam "907-ci düzəliş" birdəfəlik rədd edilməlidir. ABŞ başa düşməlidir ki, bu qətnamə əhəmiyyətsizdir və ölkəmizin hərbi qüdrəti artır, bu qadağa təsir göstərmir. Üstəlik, Rusiyanın Cənubi Qafqazda destruktiv siyasətini nəzərə alaraq ABŞ Azərbaycanla münasibətlərə yenidən baxmalıdır".

❑ **Emìl SALAMOĞLU, “Yenì Müsavat”**

# “Bizi Cənubi Qafqazdan süpürüb atırlar”

## Maksim Kalaşnikov: “Rusiyanın uzaqgörən olmayan və aqressiv siyasəti nəticəsində...”

**Rusiyalı təbliğatçı-jurnalist, ictimai və siyasi xadim, futurist-yazıçı və publisist, “İş Partiyası”nın Federal Şurasının üzvü Maksim Kalaşnikov öz Telegram kanalında Rusiyanın uzaqgörən olmayan və aqressiv siyasəti nəticəsində geosiyasi dalana düşdüyündən danışıb. O, həmçinin Zəngəzur dəhlizi ətrafındakı vəziyyətə də toxunub.**

“Açıq danışaq: bizi, sadəcə olaraq, Cənubi Qafqazdan süpürüb atırlar, Zəngəzur dəhlizi isə Türkiyə və ABŞ-ın nəzarətinə keçəcək. Biz isə Ukraynada ilişib qalmışıq”, - Kalaşnikov kədərlə düşüncələrini bölüşür.

Təbii ki, Rusiyanın zərərli təsirindən qurtulmağın Cənubi Qafqaz ölkələri üçün arzuolunmaz olduğunu söyləmək olmaz. Amma bunun reallıqda həqiqətə nə dərəcədə uyğun olduğu sual doğurur. Rusiya doğrudan da Cənubi Qafqaz dövlətlərinin siyasi elitalarına təsir imkanlarını tamamilə itirməyə yaxındır?

**Siyasi şərhçi Fuad Ağayev** Pressklub.az-a açıqlamasında bununla bağlı fikirlərini bölüşüb. Onun sözlərinə görə, Maksim Kalaşnikovun Cənubi Qafqazda Rusiyanın geosiyasi dalana dirənməsi və Zəngəzur dəhlizinin Türkiyə və ABŞ-ın nəzarətinə keçməsi ilə bağlı qiymətləndirməsi Rusiyada müəyyən dairələrdə artan narahatlığı əks etdirir və bir çox regional və Qərb müşahidəçilərinin analitik nəticələri ilə üst-üstə düşür: “Rusiya Cənubi Qafqazda təsirini itirirmi? Analitiklərin yekdil rəyinə görə, bir vaxtlar Rusiyanın Cənubi Qafqazda mübahisə doğurmayan təsiri doğrudan da eroziya mərhələsindədir. Bu proses dünən başlamayıb, lakin 2022-ci ildə Rusiyanın Ukraynaya tammiqyaslı müdaxiləsi nəticəsində sürətlənib. Müharibə Moskvanın hərbi, iqtisadi və diplomatik resurslarını ciddi şəkildə tükəndirib, onun zəifliklərini üzə çıxarıb, regionda dominant oyunçu və təhlükəsizlik zəmanətçisi kimi cəlbediciliyini və imkanlarını azaldıb. Bu, Rusiyanın mövqelərini zəiflədən əsas amillərdən biridir. Ukraynadakı münaqişə Rusiyanın resurslarını tükədir və Moskvanın etibarlı hərbi müttəfiq imicini sarsıdır. 2020-ci ildəki hərbi qələbə və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı ilə Qarabağ üzərində suverenliyini tam bərpa edən Azərbaycanın regional status-kvosu kökündən dəyişib. Rusiya sülhməramlı kontingentinin öncədən müəyyən edilmiş müddətdən əvvəl Azərbaycanın ərazisindən çıxarılması da bu yeni düzənin simvolik təsdiqi olub.




Bundan əlavə, Ermənistan, Azərbaycan və Gürcüstan Moskvanın təsirindən asılılığı azaldaraq, xarici siyasi və iqtisadi əlaqələrini şaxələndirmək yolları axtarır. Ermənistan Qərb (AB, ABŞ) və İranla münasibətləri dərinləşdirir. Azərbaycan Türkiyə ilə strateji müttəfiqliyini gücləndirir, həmçinin özünü Rusiya ərazisindən yan keçən “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin əsas qovşağı kimi təqdim edir. Gürcüstan isə daxili siyasi ziddiyyətlərə baxmayaraq, Avroatlantik inteqrasiya kursunu davam etdirir.

Rusiyadan iqtisadi asılılıq (xüsusən də Ermənistan üçün) hələ də əhəmiyyətli olsa da, Moskvanın iqtisadi dominantlığında azalma müşahidə olunur. Moskvaya qarşı tətbiq olunan Qərb sanksiyaları və alternativ ticarət yollarının, məsələn, Orta dəhlizin axtarışı Rusiya ilə əməkdaşlığı getdikcə daha zərərli edir.

Beləliklə, Rusiya həm “qamçı” (hərbi üstünlük), həm də “kökə” (iqtisadi cazibə və “yumşaq güc”) alətlərini sürətlə itirir. Bu, Rusiyanın tamamilə və dərhal çıxması demək deyil, lakin onun təsirinin sıxışdırılması tendensiyası artıq aydındır.

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

## Azərbaycan NATO təlimlərində




**Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Gürcüstanda keçirilən "Agile Spirit-2025" təliminde müşahidəçi qismində iştirak edir.**

Müdafiə Nazirliyi xəbər verir ki, ilkin mərhələsi Gürcüstanın Vaziani və Norio Təlim mərkəzlərində kompüter dəstəkli komanda-qərargah təlimi kimi keçirilən "Agile Spirit -2025"in hava desant birliklərinə aid komponenti isə qardaş ölkə Türkiyədə icra olunub.

Təlimin məqsədi Qara Dəniz regionunda sülh və sabitliyə töhfənin verilməsi, eləcə də Amerika Birləşmiş Ştatları, NATO-ya üzv və tərəfdaş ölkələrin döyüş hazırlığının, qarşılıqlı uzlaşma və əməliyyat qabiliyyətlərinin artırılmasıdır.

## Hərbçilərimiz Pakistana getdilər

**Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində ilk dəfə keçiriləcək "Müstəqillik günü" və "Haqqın qələbəsi"nə həsr edilmiş hərbi paradda iştirak etmək üçün Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Bakıdan yola düşüb.**

Müdafiə Nazirliyindən verilən xəbərə görə, hərbi paradda ölkəmizi Azərbaycan Ordusunun bir qrup komando heyəti və Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestri təmsil edəcək.

## Rusiyadan miqrantlar əleyhinə daha bir qərar

**Rusiya məktəblərində miqrant uşaqların pullu təhsil alması ölkə konstitusiyasına ziddir.**

TASS xəbər verir ki, bunu Rusiya Federasiyası Təhsil Nazirliyinin rəsmisi Aleksandr Reut bildirib. "Konstitusiyamıza görə, bütün Rusiya vətəndaşları və xarici vətəndaşlar təhsil hüququ ilə təmin olunur. Bu, Rusiya Federasiyasının ərazisində olan bütün insanlar üçün ümumi hüquqdur. Ümumi təhsil və orta professional təhsil ödənişsizdir, ali təhsil müəssisələrində oxumaq isə müsabiqə əsasında ödənişsizdir", - o deyib.

Bundan əvvəl Dövlət Dumasının Əmək Komitəsinin sədri Yaroslav Nilov bildirmişdi ki, deputatlar miqrant uşaqların məktəblərdə pulsuz təhsil almasına qadağa haqqında yenilənmiş fraksiyalararası qanun layihəsini Parlament Palatasına təqdim etməyə hazırlaşırlar.

# Azərbaycana dost olmayan ölkələrin siyahısı

## Fransa, Rusiya, İran, Niderland, Belçika, Hindistan və daha hansılar...

**Ukrayna müharibəsinin davam etdiyi 3 ildə ABŞ və Rusiya rəsmi şəkildə dost olmayan dövlətləri siyahılaşdırmağa qərar verdi. Məsələn, ABŞ-ın siyahısında Rusiya, İran, Yəmən kimi dövlətlər varsa, Rusiyanın siyahısında ABŞ-la yanaşı əksər Avropa, Baltikyanı və Skandinaviya ölkələrin adına rast gəlmək olar.**

Azərbaycan supergüc olmasa da, bu cür siyahıya zərurət hiss olunur. Prezident İlham Əliyev də 44 günlük müharibədə anti-Azərbaycan mövqeli ölkələr olduğunu deyib.

Şübhəsiz ki, bu siyahını həm yuxarıdan, həm də aşağıdan tutsaq, Fransa başda olacaq. Yəni açıq şəkildə Ermənistanı dəstəkləyən yeganə ölkədir. Avropada da bu sayaq anti-Azərbaycan mövqeli, amma cırtdan dövlətlər var ki, parlamentləri zaman-zaman ermənipərəst qətnamələrlə özlərini yada salırlar. Türkiyə və Gürcüstan istisna, qonşularımız da "bel bağlamalı dostlar" deyillər, bununla belə, tərəfdaşlığımız, əməkdaşlığımız davam etməlidir. Hər halda, Azərbaycan indiki geosiyasi şəraitdə rəsmi şəkildə dost olan və olmayanların siyahısını açıqlamaqla üzərimizə gələn təzyiqlər fonunda prosesləri mürəkkəbləşdirə bilər. Lakin yazarlar, deputatlar, politoloqlar öz fikirlərini deməlidirlər. Biz necə deməyək ki, Niderland, Danimarka kimi ölkələr, hətta cırtdan Lüksemburq da bizə dost ölkə olmadığını çıxardıqları qətnamələrlə sübut ediblər. Biz necə deməyək ki, dünənədək Suriya da erməniperəst mövqe sərgiləyirdi, amma indi Azərbaycan bu dövlətə qaz verir. Bəs siyasət adamları nə düşünür, əgər belə bir siyahı rəsmiləşdirsək, bizə dost olmayan ölkələrin siyahısını necə təsəvvür etmək olar?



**Siyasi təhlilçi Sona Əliyeva "Yeni Müsavat"da 5 il öncə Azərbaycanın dostlarının məlum olduğunu diqqətə çatdırdı**: "2020-ci ilin payızında gerçəkləşən 6 həftəlik Vətən müharibəsindən sonra Azərbaycana dost olan və olmayan ölkələrin siyahısı demək olar ki, bəlli oldu. Türkiyə, Pakistan, İsrail, Britaniya və Türküstan regionu ölkələri Azərbaycana dəstək verdilər. Fransa, Rusiya, Serbiya (Ermənistana silah satırdı), Niderland, Belçika və Lüksemburq kimi ölkələr Ermənistanın yanında dayandılar. Üstəlik, Argentina, Çili, Nauru kimi bu regiona yaxın olmayan dövlətlər də Ermənistanı dəstəklədilər. Azərbaycana qarşı əks qütbdə mövqe sərgilədilər. Sonradan Serbiya öz səhvini anladı və qaz almaq üçün Azərbaycanın ayaqlarına qapandı. İran da Ermənistanı özünə "doğma bacı" elan edərək bizə qarşı kəskin mövqedə dayandı. Belarus isə Rusiyanın ən yaxın müttəfiqi olmasına baxmayaraq, müharibə dövrü və ondan sonrakı mərhələlərdə bizə qarşı əks mövqedə olmadı. Minsk öz siyasi imkanları daxilində Bakıya dəstək durmağa çalışdı. Bunun da səbəbi var idi. Rusiya Belarusu qazla imtahana çəkərkən Azərbaycan Belarusa dəstək göstərdi. Ukrayna isə zaman-zaman Azərbaycana qarşı ikili standartlardan çıxış edir. Gah bizim yanımızda olduğunu göstərməyə çalışır, gah da Ermənistanı öyür. Zelenskinin Ukraynası son beş ildə "nə ət, nə balıq" düsturu ilə siyasət yürütməkdədir. Çin də son illərdə Azərbaycanın ən strateji tərəfdaşlarından sayılır. Bir sıra böyük layihələrdə Pekin Bakı ilə sıx əməkdaşlıq içərisindədir. Görünən odur ki, Bakının balanslı və uzaqgörən siyasəti özünə sağlam tərəfdaşlar seçməkdə çox böyük kömək olur. Çürümüş dostluqlar isə zamanın siyasət məşınında ələnir və yerini daha sağlam dostluqlara həvalə edir".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucovun sözlərinə görə, Azərbaycanın bu gün dünyada söz sahibinə çevrilməsində dostlarının da rolu danılmazdır:** "Rusiya və ABŞ-ın dost və qeyri-dost ölkələr elan etdikləri siyahı şərti xarakter daşıyır və dəyişkəndir. Bəzən burada obyektivlik, cəmiyyətin rəyi nəzərə alınmır. Digər tərəfdən, dövlətlərin mövqeyi ilə xalqın mövqeyi üst-üstə düşməyə də bilər. Bir vaxtlar Moskvanın qeyri-dost siyahısında olan dövlətlər bu kateqoriyada deyildi. Ukraynaya təcavüzündən sonra bu təcavüzə qarşı çıxanları Moskva dost olmayan ölkələr siyahısına saldı. Rusiya dost anlayışını sözə baxan, təsirindən çıxmayan və ona bağlı olma anlayışları ilə eyniləşdirir. Birləşmiş Ştatlar seçimini edəndə də əsas milli maraqlar prizmasından yanaşır. Məncə, bu daha real yanaşmadır. Çünki hər bir dövlət ilk növbədə öz milli maraqlarını həyata keçirməyə və təhlükəsizliyini təmin etməyə məsuldur. Təbii ki, bu prizmadan yanaşıldıqda Azərbaycan da dost və dost olmayan dövlətləri müəyyənləşdirib ona uyğun davranmalıdır. Azərbaycan nə qədər dost əlini uzatsa da, normal münasibət qurmağa cəhd göstərsə də, Tehran rejimi ilə dost olmaq, göründüyü kimi, mümkün olmur. Bu rejimin düşmənçilik və xislətini dəyişmək çətin ki, alınsın. Yaxud Rusiya həmişə təkcə Azərbaycana deyil, keçmiş SSRİ məkanına öz müstəmləkəsi kimi yanaşır. Ermənistan Türkün əzəli düşmənidir. Bu, ümumilikdə cəmiyyətə də aiddir. Patoloji nifrət və xəstə cəmiyyət heç vaxt Azərbaycanla münasibətin normal qurulmasına imkan verməz. Əlbəttə, hər bir dövlətin dostu və dost olmayanları var. Əgər biz bunu sıralasaq, dost siyahısına Türkiyə, Pakistan, KKTC,Türk dövlətlərini, Birləşmiş Krallığı, Gürcüstanı, İtaliyanı və s. yazardım. Çinlə son dövrlər inkişaf edən əlaqələri nəzərə alsaq siyahını genişləndirə bilərik. Bakı, məncə, bütün platformalarda bu dövlətlərə güvənə bilər. Dost olmayanlara gəlincə, bütün rəy sorğularında ilk sıralarda Fransa, Ermənistan, Rusiya, İran, Niderland, Belçika, Hindistan olduğu qənaətindəyəm. Bu dövlətlər təkcə Azərbaycanın milli maraqlarına və təhlükəsizlik məsələlərinə toxunan siyasət sərgiləmirlər, eyni zamanda beynəlxalq hüquqa hörmətsizlik göstərirlər. "Dost çətin gündə tanınar" atalar deyimi təsadüfən yaranmayıb. 44 günlük Vətən müharibəsi bir çox dövlətlərin əsl simasını yırtdı. Azərbaycanla heç də dost olmadıqlarını çılpaqlığı ilə büruzə verdi. Həmçinin dostlar da bu sınaqdan alnıaçıq çıxdılar. İsrailin simasında cəmiyyət dostluğun, dost münasibətin nə qədər önəmli olduğunu bir daha ortaya qoydu. Bu gün Azərbaycanın dünyada söz sahiblərindən və güc mərkəzlərindən birinə çevrilməsində dostlarının da rolu danılmazdır. Dövlətimizin güclü olması onun dostlarının da gücünə güc qatır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# İran parlamenti Xəzərin bölünməsi sənədini qəbul etmir

## Ratifikasiyanın 7 ildir yubanması ən çox Rusiyanın işinə yarayır - istədiyi vaxt digər dövlətlərin ərazi sularına müdaxilə edə bilər



**"Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və İran tərəfindən imzalanıb. Ancaq İran parlamenti hələ də konvensiyanı ratifikasiya etməyib. Bu o deməkdir ki, konvensiya qüvvəyə minməyib. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın 22-ci maddəsinə görə, konvensiya bütün dövlətlər tərəfindən ratifikasiya olunduqda qüvvəyə minir.**

Rusiya Xəzər dənizində son zamanlar hərbi aktivliyini artırıb. Bundan əlavə, Rusiya rəsmiləri tərəfindən Xəzərdən guya Qərbin təhdidləri artdığı yönündə bəyanatlar diqqət çəkir. Hətta Rusiya Prezidenti Təhlükəsizlik Şurasının iclasında Xəzər təhlükəsizliyi məsələsi ön plana çıxarılır. İranın 7 il əvvəl razılaşdırılmış və beş Xəzəryanı dövlətin təsdiqləməli olduğu konvensiyanı bu günədək ratifikasiya etməməsinə doğru-dürüst izahat verə bilməyib. Bunu daha çox mühafizəkarların mövqeyi ilə izah etməyə çalışırlar. Amma belə görünür ki, İranın bu yubatması ən çox Rusiyanın işinə yarayır. Yəni faktiki olaraq Xəzər Konvensiyası işlək hüquqi əsasa söykənmir. Rusiya istədiyi vaxt digər dövlətlərin ərazi sularına müdaxilə edə bilər.

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı** "Yeni Müsavat"a açıqlamasında onu qeyd etdi ki, İranın bu mövqeyi əslində dövlətlərarası etimadı zədələyir: ""Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın 2018-ci ildə imzalanmasına baxmayaraq, İranın bu sənədi hələ də ratifikasiya etməməsi ciddi narahatlıq doğurur. Bu, təkcə hüquqi və siyasi məsuliyyətin deyil, eyni zamanda regional sabitliyin və dövlətlərarası etimadın da zərbə almasına gətirib çıxarır. Konvensiyanın 22-ci maddəsində açıq şəkildə göstərilir ki, sənəd yalnız bütün Xəzəryanı dövlətlər tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minir. Hazırda isə İranın bu prosesdən yayınması Xəzər dənizində beynəlxalq hüququn tətbiqinə maneə yaradır. Belə bir şəraitdə digər tərəflərin üzərinə düşən öhdəliklər formal olaraq qüvvədə olsa da, hüquqi mexanizm tam mənada işləmir. Son dövrlər Rusiyanın Xəzər dənizində hərbi fəallığı və İranla birgə hərbi təlimlər keçirməsi Azərbaycana qarşı hesablanmış və göz dağı vermək məqsədi daşıyan bir prosesdir. Aydındır ki, İran və Rusiya Azərbaycanın regionda artan fəallığını və müstəqil xarici siyasət strategiyasını qəbul etməkdə çətinlik çəkir. Eyni zamanda İranın Xəzər dənizi ilə bağlı iddiaları tam olaraq bitmədiyi üçün rəsmi Tehran bu sənədi ratifikasiya etmir. Bu isə öz növbəsində ikili nəticə doğurur: bir tərəfdən regionda hüquqi boşluq yaradır, digər tərəfdən isə həmin boşluğun üçüncü tərəflər tərəfindən öz maraqları naminə sui-istifadə olunmasına zəmin yaradır. İranın bu mövqeyi təkcə hüquqi məsuliyyətdən yayınmaq deyil, həm də geosiyasi manipulyasiya alətinə çevrilmək riski daşıyır. Əgər Tehran bu sənədə sadiqliyini və regionda ədalətli əməkdaşlıq ruhuna bağlılığını nümayiş etdirmək istəyirsə, konvensiyanı təcili şəkildə ratifikasiya etməlidir. Azərbaycan Xəzər dənizinin hüquqi statusuna dair ədalətli və balanslı çərçivənin formalaşmasında maraqlıdır və bu istiqamətdə üzərinə düşən öhdəlikləri yerinə yetirib. Eyni yanaşmanı bütün tərəflərdən, o cümlədən İrandan da gözləmək tamamilə haqlıdır. Geosiyasi gərginliklərin artdığı bir dövrdə Xəzərin hüquqi çərçivədə qorunması regional təhlükəsizliyin və dövlətlərarası etimadın əsas sütunlarından biri olmalıdır".

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Xəzər dənizini Rusiya və İran hərbiləşdirir:** "Xəzərin bölünməsini özündə ehtiva edən "Xəzərin hüquqi statusu" haqqında konvensiya 2018-ci ildə Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə qəbul edilib. Qeyd edim ki, Xəzərin sahilyanı ölkələr arasında bölünməsi 1921 və 1940-cı il müqaviləsinə uyğun olaraq bölünüb. 70 il Xəzər SSRİ və İran arasında bölünüb. İki sahilyanı dövlət olub. İran Xəzər dənizini göl statusunda bölünməsini tələb edir. Bu onun maraqlarına cavab verir. Amma sahəsi 370 min kv olan su hövzəsi və çaylarla okeana çıxışı olan göl ola bilməz. Ona görə də 2018-ci ildə Xəzərin hüquqi statusu dəniz olaraq təsbit olunub. Ona görə də İran bununla razılaşmır. Digər sahilyanı ölkələr konvensiyanı ratifikasiya edib. İran isə manipulyasiya edir. Azərbaycan İran hökuməti ilə danışmalıdır. Prezident Məsud Pezeşkian konvensiyanın ratifikasiyasında maraqlıdır. Amma İran parlamenti və ali dini rəhbər buna qarşıdır. İranın ali dini rəhbəri Ayətullah Xamneyi Azərbaycana qarşı daima qeyri-konustruktiv mövqedədir və Rusiya ilə birgə koordinasiyalı çalışır. 7 il ərzində geosiyasi proseslər sürətlə dəyişib. Azərbaycan öz ərazilərini işğaldan azad edib. Regionda güclənib. Rusiya Ukraynaya qarşı müharibə aparır. Artıq Qərb və Rusiya Cənubi Qafqaz və Xəzər regionunda geopolitik qarşıdurmaya keçib. İranın Qərblə münasibətləri kəskindir. Belə olan təqdirdə, İran Kremlin göstərişi ilə konvensiyanı ratifikasiya etməyəcək. Hətta İran Xəzər dənizində Rusiya ilə birgə hərbi təlimləri intensivləşdirəcək. Xəzər dənizini Rusiya və İran hərbiləşdirir. Proseslər regionda yeni qarşıdurma riski yaradır. Transxəzər qaz çəkilişi gündəmdədir. İran və Rusiya buna imkan vermir. Ümumi götürdükdə Xəzər dənizinin hüquqi statusu tam olaraq həll edilməmiş qalacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Bakı-Tiflis qatarının sirri açılmır

## Bəzi ekspertlərə görə, azərbaycanlı miqrantların ölkəyə qayıtması Gürcüstanda iqtisadi və sosial tarazlığı poza bilər

**Azərbaycan və Gürcüstan arasında qatarların hərəkəti 2020-ci ilin mart ayında koronavirus pandemiyası səbəbindən dayandırılıb. Bir müddət əvvəl Gürcüstanın İqtisadiyyat Nazirliyi qatarların hərəkətinin mayın 1-dən bərpa ediləcəyini bildirsə də, Bakı-Tiflis-Bakı qatarı fəaliyyətə başlamayıb.**




Gürcüstan və Azərbaycan rəsmiləri arasında sözügedən məsələ barədə ötən ay da müzakirələr aparıb. Ötən həftəsonu Gürcüstanın iqtisadiyyat naziri Mariam Kvrivşvilinin ölkəmizə səfərində əsas müzakirə mövzusu Bakı-Tiflis sərnişin qatarının bərpası olub. "Sputnik-Qruziya" yazıb ki, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin görüşündə də bu məsələ diqqətdə olub.

Qeyd edək ki, fevral ayında Gürcüstanın baş naziri İrakli Kobaxidze Azərbaycana səfəri çərçivəsində bu mövzuda Prezident İlham Əliyevlə də müzakirə aparıb. "Ölkələrimiz arasında daha çox insanın səyahət etməsi çox vacibdir, çünki bu, xalqlarımız arasında ənənəvi dostluğu daha da möhkəmləndirəcək", - deyə Kobaxidze bildirib.

Son olaraq qatarın may ayının sonunda 5 illik fasilədən sonra Gürcüstanın Müstəqillik Günü (26 may) və Azərbaycanın Respublika Günü (28 may) hərəkətə başlayacağı deyilirdi.

Modern.az məsələ ilə əlaqədar Gürcüstanda dəmir yollarına nəzarət edən İqtisadiyyat Nazirliyinə sorğu ünvanlayıb.

**Gürcüstan İqtisadiyyat Nazirliyinin mətbuat katibi sayta açıqlamasında bildirib ki, Gürcüstan və Azərbaycan arasında Tiflisi-Bakı marşrutu üzrə sərnişin dəmir yolu xəttinin bərpası istiqamətində danışıqlar davam etdirilir.**

**Onun sözlərinə görə, iki ölkə arasında sərnişin dəmir yolu xəttinin yenidən fəaliyyətə başlaması yalnız nəqliyyat baxımından deyil, həm də sosial və iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır:** "Biz Gürcüstan və Azərbaycan arasında sərnişin dəmir yolu əlaqəsinin bərpasını səbirsizliklə gözləyirik. Bu təşəbbüs tərəfdaşlığımızın daha da möhkəmlənməsinə, xalqlarımız arasında əlaqələrin dərinləşməsinə və hər iki ölkədə turizm sektorunun inkişafına mühüm töhfə verəcək".

**Nazirlikdən bildirilib ki, Tiflis-Bakı marşrutu üzrə sərnişin qatarlarının fəaliyyətinin bərpası təşəbbüsü cari ilin iyul ayında Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri cənab Levan Davitaşvilinin Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər zamanı Gürcüstan tərəfi tərəfindən gündəmə gətirilib:** "Səfər çərçivəsində keçirilən görüşlərdən sonra məsələ daha geniş şəkildə, texniki detalları da daxil olmaqla, Tiflisdə Azərbaycan Dəmir Yolları rəhbərliyi ilə müzakirə olunub. Hazırda məsləhətləşmələr davam edir və biz Azərbaycan hökumətinin bu məsələ ilə bağlı qərarını gözləyirik".

Qeyd edək ki, iddialara görə, quru sərhədlərinin bağlı saxlanması və bu kontekstdə sərnişin qatarlarının işə salınmaması ilə bağlı bir sıra səbəblərin olduğu bildirilir. Quru sərhədlərin açılmasının nəzarətsiz insan axınının artmasına, o cümlədən qeyri-qanuni miqrasiya, qaçaqmalçılıq və digər risklərə yol açacağı düşünülür. Bəzi ekspertlərə görə, quru sərhədlərin açılması fonunda Gürcüstan vətəndaşlarının və azərbaycanlı miqrantların ölkəyə nəzarətsiz girişi iqtisadi və sosial tarazlığı poza bilər. Bu, xüsusilə regionlarda işsizlik və sosial gərginliklə bağlı narahatlıqlar fonunda ön plana çıxır.

Azərbaycan quru sərhədlərini yalnız Gürcüstanla deyil, digər qonşularla da tam açmayıb. Bu isə onu göstərir ki, məsələ təkcə Bakı-Tiflis qatarı ilə bağlı deyil - Azərbaycan ümumilikdə quru sərhəd siyasətini dəyişmək istəmir. Bu da digər səbəblərlə izah oluna bilər. Mümkün təxribatların, nəzarətsiz informasiya və insan axınının qarşısı alınır. Pandemiya sonrası yeni nəzarət rejimi müəyyən qədər ölkədaxili idarəetməyə uyğunlaşdırılıb və onu pozmaq istəmirlər.

❑ **"Yeni Müsavat"**



# Buraxılış duası

**Zamin HACI**
zaminhaci@gmail.com

**Sərnişin daşıyan mikroavtobusla "KamAZ" toqquşub, 7 nəfər ölüb. Sağ qalanlar da nə vəziyyətdədir, regional təbabətimiz sayəsində axırları necə olacaq - Allah bilir.**

Əslində bizim bir çox həyat və yaradıcılığımız, fəaliyyət və məqsədlərimiz elə bu ifadə ilə səmərəli şəkildə ört-basdır edilməkdədir. “Allah bilir” şüarını niyə konstitusiya və qanunlarımıza salmamışıq, görəsən? Bunun müxtəlif versiyaları da yaxşıdır, işləkdir, uğurla tətbiq edilə bilər: “Allah bilən məsləhətdir”, “Allah biləni biz bilmərik”, “Hər kəs özü ilə beş arşın kəfən aparacaq” və sairə. Dünyəvi işlərimizin fırıq olmağına görə niyə dərd çəkək ki? Əsas adamın o biri dünyasıdır. Həri.

Yol polisi aktiv şəkildə xalqa müraciət hazırlamış, saxta marşrutkalardan yayınmağa səsləmişdir. Minnətdarıq, təşəkkür edirik, üzr istəyirik, lap belə ölək təkər və miqalkanızın altında. Sizə gələn bizə gəlsin.

O cümlədən mənim rəhmətlik Ayna nənəmin ismini daşıyan, nəticədə hər adını oxuyanda ürəyimin sarı simləri titrəyən yerüstü nəqliyyat agentliyi də açıqlama yaymışdır. Deyir, nə avtobusun, nə "KamAZ"ın sənədləri var imiş. **Sitat:** ""Mercedes-Bens" markalı “Sprinter” mikroavtobus sifarişli sərnişindaşımanı fərqlənmə nişanı, daşımalara buraxılış vəsiqəsi və buraxılış kartı olmadan həyata keçirib. Həmçinin “KamAZ” markalı yük nəqliyyat vasitəsinin də daşımalara buraxılış vəsiqəsi və buraxılış kartı olmayıb". Sitatın sonu.

Daha dərin araşdırma aparsan bəlkə avtobusun iki təkərlə getdiyi, ölənlərin şəxsiyyət vəsiqəsinin vaxtının keçdiyi, bəzilərinin aliment ödəmədiyi, hətta ola bilsin orta məktəbdə fizika dərsindən kəsilməsi ortaya çıxar. Ona görə də klaviaturamı kompüterimin bir yerinə qoyub susuram. Dövlət idarələrinə minnətdarlığımızı bildiririk ki, çox şeyləri üzümüzə vurmurlar.

Əks halda, gərək biz həmin idarələrdən soruşaq ki, buraxılış vərəqəsini-zadı o maşınlara kim verməliydi? Qanunsuz marşrutkalar niyə var? İndi biz hər dəfə avtobusa minəndə sürücüdən prava istəməliyikmi? Ona cərimə balı yazmalıyıqmı? Mənim sürücülük vəsiqəsi satmağa ixtiyarım varmı? Görəsən, dünyaya nöş gəlib insan? Birinci toyuq yaranıb, yoxsa yumurta?

Suallar çoxdur, cavabı yoxdur. Çünki bizdə çox şey formaldır, kağız üzərindədir, fiktivnidir.

Bu yaxında Abşeron rayon xəstəxanasındakı qəribə növbə haqda xəbər çıxmışdı. Orada səhər saat 9-da elektron növbə qurğusundan çıxarılan sıra sayının fotosu verilmişdi və belə məlum olurdu adam 1780-cidir. Xəstəxana nümayəndəsi də fotonu təsdiqləmişdi, demişdi hələ bu nədir, gündə 3000-3500 nəfərə xidmət göstəririk.

Xəstəxanalarda tələbələrə, şagirdlərə, işə qəbul üçün, sürücülərə və sairəyə sağlamlıq arayışları verilir, növbəyə duranların çoxu bu kateqoriyaya aiddir. İndi gəlin balaca bir hesablama aparaq. Hesab edək xəstəxana gündə 8 saat qəbul keçirir. 3500 nəfəri 8 saat arasında bölsək saata təxminən 437 nəfər düşür. 1 saat 60 dəqiqədirsə, deməli, Abşeron rayon xəstəxanası dəqiqədə azı 7 nəfəri yola salmalıdır.

Rəhmətlik aktyor Arif Quliyevin “Salam, sağ ol” metodunun təbabətdə tətbiqi saymaq olar, açığı, buna belə şübhəm var, çünki altmış saniyədə 7 nəfərlə salamlaşmaq özü xeyli çətin prosesdir. Bəlkə yazışma ilə “slm”, “ok” yazsalar?..

Deməli, orada göstərilən hər hansı tibbi xidmət, o cümlədən verilən sağlamlıq arayışları uydurmadan başqa bir şey deyil. Özümüzü aldadırıq. Haçana qədər?

Ta ki, səhərə yaxın KamAZ qabağımıza çıxanacan. İraq olsun. Ancaq bunun üçün dualar var, yazdırıb qabaq tərəfdən asmaq lazımdır. Buraxılış kartını əvəz edir.

Hərçənd bu sferada da son illər dələduzlar çıxıb, saxta dualar yazırlar.

---

**“Euronews” kanalının internet səhifəsində ABŞ Prezidentinin Azərbaycan və Ermənistan rəhbərləri ilə gözlənən görüşündən yazı dərc olunub.**



# “Euronews”: “Rusiyadan uzaqlaş...”

## Kanalın internet səhifəsindəki yazıda gözlənilən Tramp-Əliyev-Paşinyan görüşü qlobal miqyasda mühüm mesaj hesab edilir

Avqustun 8-i ABŞ Prezidenti Donald Tramp paytaxt Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla danışıqlar aparacaq. Görüşlərin əsas mövzusunun sülh prosesi olacağı açıqlanıb.

Novator.az-ın məlumatına görə, “Euronews” Vaşinqton görüşünün Azərbaycanla Ermənistan arasında sülh sazişinin əldə olunmasına təkan verə biləcəyini vurğulayır: “Bu sammit yalnız Cənubi Qafqaz üçün önəmli deyil, qlobal miqyasda da mühüm mesaj daşıyır: Bakı və İrəvan münaqişəni Rusiyasız həll etməyə, xarici siyasətdə isə Moskva əvəzinə Qərbə yönəlməyə hazır olduqlarını nümayiş etdirirlər. Razılaşma imzalanarsa, bu, ABŞ prezidentinin beynəlxalq münaqişələrin həllində liderlik iddiasını gücləndirmiş olacaq”.

**Yazıda qeyd olunur ki, Vaşinqton görüşünün keçirilmə vaxtı təsadüfi deyil:** “Donald Trampın Kremlə Ukrayna cəbhəsində atəşkəslə bağlı qoyduğu müddətin başa çatdığı bir gündə keçmiş SSRİ məkanının iki ölkəsinin Vaşinqtonda sülhə imza atması Rusiyada narahatlıq doğurmaya bilməz. Bu, həm də bölgədə dəyişən geosiyasi reallıqların göstəricisidir. Daha Moskvaya Cənubi Qafqazda əvvəlki kimi etibar olunmur və artıq Rusiya bölgədə əvvəlki gücdə mövcud deyil.

Sülh gündəliyinin başlıca maddəsi Zəngəzur dəhlizidir - Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək və Türkiyə ilə birbaşa quru əlaqəsi yaradacaq nəqliyyat marşrutu. Azərbaycan üçün bu layihə strateji əhəmiyyət daşıyır: dəhliz həm Naxçıvanla birləşməni təmin edəcək, həm də Türkiyə ilə əlaqələri gücləndirəcək, postmüharibə reallıqlarını infrastruktur diplomatiyası ilə möhkəmləndirəcək. Bakı dəhlizə üçüncü tərəflərin müdaxiləsini istəmir və onu öz nəzarətində görmək niyyətindədir. Ermənistan isə layihənin iqtisadi faydalarını etiraf etsə də, nəqliyyat yolunun tam şəkildə öz nəzarətində qalmasını tələb edir".

**“Euronews” yazır ki, ABŞ Zəngəzur dəhlizinin idarəçiliyini öz üzərinə götürməyi təklif edir:** “Bu təklif Bakıdan Türkiyəyə, oradan isə Avropa və Asiyaya uzanan fasiləsiz nəqliyyat arteriyasının yaradılmasını hədəfləyir. Ankara da dəhlizi öz enerji və ticarət ambisiyaları baxımından açar layihə kimi görür.

Lakin bu planlar Moskva və Tehranda qəzəblə qarşılanır. Hər iki paytaxt ABŞ-ın Cənubi Qafqazda fəallaşmasını öz nəzarət mexanizmlərinə təhdid kimi qiymətləndirir. İran üçün bu layihə Ermənistan vasitəsilə Cənubi Qafqaza çıxışı itirmək, yəni şimala birbaşa quru ticarət yolundan məhrum olmaq deməkdir. Dəhliz həm də Türkiyənin bölgədə nüfuzunu artıra və ABŞ-ın birbaşa İran sərhədlərində mövcudluğuna gətirə bilər. Rusiya isə dəhlizin gerçəkləşməsi ilə Cənubi Qafqazda son təsir imkanlarını da itirmiş olacaq".

**“Euronews” kanalının internet səhifəsindəki yazıda o da vurğulanır ki, Ukraynada savaş bataqlığında ilişib qalan Rusiya son illər Cənubi Qafqazda təsir dairəsini sürətlə itirib**: “2023-cü ilin sentyabrında Azərbaycan qısa hərbi kampaniya ilə Qarabağ üzərində tam nəzarəti bərpa edib. Bu, uzun illərdir davam edən münaqişədə Kremlin vasitəçi rolu ilə formalaşan balansın tamamilə dəyişməsi anlamına gəlir. İki il sonra Bakı və İrəvan Rusiya kənarda qala-qala sülh razılaşması üzərində razılaşmağa yaxınlaşıblar. Moskvanın buna cavabı isə "vasitəçilik təşəbbüsləri" və İrəvana qarşı dezinformasiya kampaniyaları olub.

Rusiya ilə Azərbaycan arasında münasibətlər də son dövrlər gərginləşib. 2024-cü ilin dekabrında Azərbaycana məxsus sərnişin təyyarəsi Rusiyanın Qroznı şəhəri üzərində vurulub. Prezident İlham Əliyev bu hadisəyə görə Rusiyanın beynəlxalq məhkəməyə veriləcəyini istisna etmir. İyun ayında Rusiyada azərbaycanlı icması nümayəndələrinin zorakılığa məruz qalması, ardınca Bakıda Rusiyanın media nümayəndələrinin tutulması yeni eskalasiyalara səbəb olub.

Rusiya təsirindən uzaqlaşmaq Bakı və İrəvanın sülhə aparan yolunu açıa bilib. Lakin Zəngəzur dəhlizi kimi ziddiyyətli məsələlərdə kompromisə gəlmək vaxt tələb edə bilər. Bu isə bölgədə yeni aktorlar və liderlər üçün fürsət pəncərəsi yaradır - həm diplomatik nüfuz, həm də iqtisadi dividendlər baxımından. Prosesə rəhbərlik etmək istəyənlərdən biri isə Donald Trampdır".

Ermənistan 1988-1994-cü illərdə Azərbaycanın cənub-qərbini və Sədərək rayonunun 1, Qazax rayonunun 7 kəndini işğal edib, Qarabağda işğalçı rejim qurulub.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın apardığı müharibə və savaşdan sonrakı danışıqlar, lokal hərbi əməliyyatlar nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın rayonları tam, Şuşa, Xocavənd, Xocalı, Ağdərə rayonları qismən azad olunub.

2023-cü il sentyabrın 19-da Azərbaycan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Şuşa, Xocalı, Xocavənd və Ağdərə rayonlarının bir hissəsinə nəzarət edən işğalçı rejimə qarşı hərbi əməliyyata başlayıb, ertəsi gün rejim tərksilah olmaq öhdəliyi götürüb, sentyabrın 24-dən ermənilərin Qarabağdan kütləvi köçü başlayıb, sentyabrın 28-də rejim özünü buraxıb.

2024-cü il mayın 24-də Qazağın Aşağı Əskipara, Bağanıs Ayrım, Xeyrimli, Qızılhacılı kəndləri dinc yolla azad edilib.

Sədərək rayonunun Kərki, Qazax rayonunun Barxudarlı, Sofulu, Yuxarı Əskipara kəndləri işğalda qalır.

2025-ci il martın 13-də Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətninin razılaşdırıldığı bəyan olunub.

❑ **“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 138 (8748) 8 avqust 2025

# Qafqaza sülh Amerika saatı ilə gəlir

## Prezident İlham Əliyevi hərbi hava bazasında rəsmi şəxslər qarşıladı; Vaşinqtonda bu sənədlərin imzalanması gözlənilir; Tramp sülh sazişini Moskvadan necə qoruyacaq?

**ABŞ Prezidenti Donald Trampın avqustun 8-də Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevlə Ağ Evdə keçirəcəyi görüş gündəmin əsas mövzusu olaraq qalır. Görüşlər avqustun 8-də Bakı vaxtı ilə təxminən 22:30-da başlayacaq, 04-də (Bakı zamanı ilə avqustun 9-da) isə üç liderin birgə bəyanatla çıxış etməsi gözlənilir. Vaşinqtona hər iki ölkənin xarici işlər nazirinin gedəcəyi də dəqiqləşib.**



Günün ikinci hissəsində yayılan məlumata görə, Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gedib.

APA xəbər verir ki, dövlət başçısını “Joint Base Andrews” hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Trampın avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirəcəyi görüşdə müzakirə olunacaq mövzular bəlli olub. Bu barədə ABŞ-da yaşayan azərbaycanlı jurnalist Alex (Ələkbər) Raufoğlu öz X hesabında paylaşım edib.



O qeyd edib ki, aşağıdakı əsas sənədlərin imzalanması nəzərdə tutulur:

**1.** Sülh prosesinə dair yol xəritəsini müəyyən edən birgə bəyanat.

**2.** Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən əvvəlcədən razılaşdırılmış sülh sazişinin paraflanması.

**3.** Hər iki ölkənin ATƏT-in Minsk Qrupundan rəsmi çıxışını təsdiqləyən birgə məktub.

**4.** Həm ABŞ-Azərbaycan, həm də ABŞ-Ermənistan arasında münasibətlərin inkişafını nəzərdə tutan anlaşma memorandumları.

“Vaşinqtonda keçiriləcək görüşdə "tarixi irəliləyiş" kimi təqdim olunacaq sənəd imzalana bilər". Ermənistanın “Joqovurd” qəzeti Ermənistan hakimiyyətinə yaxın mənbələrə istinadən belə yazır. Qəzetin yazdığına görə, Paşinyan “Mülki müqavilə” partiyasının iclasında ABŞ-da “müəyyən sənədin” imzalanmasının böyük ehtimalla baş tutacağını bildirib.

Nəşrin iddiasına görə, Vaşinqton Zəngəzur dəhlizi probleminin həllini təklif edib. Belə ki, “dəhliz” terminindən istifadə etmədən və heç bir tərəfə xüsusi səlahiyyət vermədən, amma kənar nəzarət elementləri ilə açılmasını təklif edir.

Ekspertlərə görə, yekun sülh müqaviləsinə əsas maneə Ermənistan Konstitusiyasına dəyişikliklərin zəruriliyi olaraq qalır. Bunun üçün İrəvan yeni konstitusiya qəbul etməli olacaq ki, bu da gərgin daxili siyasi mübarizənin və 2026-cı il parlament seçkilərinə hazırlıqların getdiyi indiki şəraitdə mümkün deyil. Paşinyan etimad mandatı almaq və yalnız bundan sonra konstitusiya islahatlarına başlamaq üçün seçkilərdə qalib gəlməlidir.

Memorandumun özündə Zəngəzur dəhlizinin açılması məsələsi də öz əksini tapa bilər. Ermənistan dəhlizin Amerika şirkətinin idarəçiliyinə verilməsinə etiraz etmir, çünki hazırda Rusiya Federasiyasının FSB ona faktiki nəzarət edir. Amerika operatorunun meydana çıxması dəhlizin stabil fəaliyyətinə zəmanət verəcək və onun geosiyasi manipulyasiyalarda istifadəsini istisna edəcək. Bu, Rusiyanın bu istiqamətdə təsirini neytrallaşdırmağa çalışan İrəvanın maraqlarına cavab verir. Tam hüquqlu sülh müqaviləsinin imzalanması Ermənistanın öz konstitusiyasına qonşu dövlətlərə, o cümlədən Azərbaycan və Türkiyəyə ərazi iddialarından imtinanı özündə əks etdirən yeni geosiyasi doktrina daxil etməsindən sonra mümkün olacağını proqnozlaşdırır. Eyni zamanda Zəngəzur dəhlizinin açılması məsələsi daha tez həll oluna bilər və bu da Ermənistan-Azərbaycan münasibətlərinin yekun şəkildə normallaşması istiqamətində əməli addım olacaq.

Kremlə yaxın “Kommersant” nəşrində dərc edilən məqalədə deyilir ki, Vaşinqtonda gözlənilən danışıqlar artıq Ağ Evin rəhbəri üçün yeni diplomatik qələbə kimi qiymətləndirilir. “Hazırlanan sənəd sülh müqaviləsi olmasa da, onun imzalanması faktı Ağ Evdə Donald Trampa Cənubi Qafqazda sülhməramlı kimi çıxış etmək imkanı verəcək. Moskva ilə münasibətlərdə böhran yaşayan İrəvan və Bakı ABŞ-ı regionun əsas tənzimləyicisi kimi tanımağa hazır olduqlarını nümayiş etdirirlər”, - deyə məqalədə bildirilir.

Aydındır ki, Vaşinqtonda hansı sənədin imzalanmasından asılı olmayaraq, Rusiya bunu özünə qarşı addım hesab edəcək və gələcəkdə bu prosesi tormozlamaq üçün cəhdlər edəcək. Bəs o halda Vaşinqton sülh sazişini Rusiyadan qoruya biləcəkmi?

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə “Yeni Müsavat”a bildirdi ki, yalnız Ermənistan Konstitusiyasını dəyişdikdən sonra sülh müqaviləsi imzalana bilər**: “Ehtimal edə bilərik ki, Vaşinqtonda tərəflər sülh üçün niyyət bəyanı, yaxud ondan müəyyən qədər artıq hüquqi qüvvəsi olan sülh üçün çərçivə sazişi imzalayacaqlar. Adətən bəyanatların hüquqi bağlayıcı qüvvəsi olmasa da, bu sənədlər sülh müqaviləsi imzalamaq niyyəti ifadə edən ilkin razılaşmalardır. Çərçivə sazişi isə müəyyən hüquqi qüvvəsi olan, sülh üçün prinsipləri, sərhədlər, təhlükəsizlik (indiki halda Zəngəzur dəhlizində təhlükəsizliyin təmini) və s. detalları özündə ehtiva edən sənəddir. Beləliklə, Trampın liderliyində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinə gedən yolda vacib addım atılacağı gözlənilir və buna görə də son dövrlər Rusiya və İrandan təzyiq və hədələr artmaqdadır. Bu təzyiq və hədələri neytrallaşdırmaq, sülh prosesini qorumaq, o cümlədən digər regional konfliktlərə dair ABŞ və Rusiya arasında anlaşmaq üçün Trampın xüsusi nümayəndəsi Uitkoff bu günlərdə Moskvaya səfər edib. Bu danışıqlar, hər halda, Zəngəzur dəhlizinə dair məsələni də əhatə edir. Bu məsələdə ABŞ üstünlüyünü qorumaq üçün Trampın Rusiyaya daha öncə verdiyi 10 günlük vaxt, yeni sanksiyalar, Ukraynaya daha güclü hərbi yardım və s. kimi təzyiqlərdən istifadə etdiyini deyə bilərik. Beləliklə, Vətən müharibəsində tam qələbəmiz, suverenliyimizin tam bərpası 2020-2023-cü illəri əhatə etdiyi kimi, Zəngəzur dəhlizinin açılması ilə taclandırılacaq sülh müqaviləsi istiqamətdə uzun müddətdir davam edən danışıqların artıq yekun mərhələyə qədəm qoyduğunu deyə bilərik”.

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynovun sözlərinə görə, Azərbaycan üçün əsas məsələ, sülhün hansı ölkənin təşəbbüsü ilə, harada və necə əldə olunmasından daha çox, həmin sənədin Azərbaycanın milli maraqlarına cavab verib-verməməsidir:** “Bu baxımdan sülh müqaviləsində ilk növbədə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması, qarşılıqlı surətdə ərazi iddialarından imtina etməsi və xüsusilə Ermənistan Konstitusiyasında əksini tapan qeyri-real ərazi iddialarının rəsmən ləğv olunması əsas şərtlər sırasındadır. Eyni zamanda Azərbaycanın Naxçıvanla Zəngəzur dəhlizi vasitəsilə birbaşa bağlantı qurmaq hüququ, bu sülh paketində yer almalıdır. Azərbaycan bu dəhlizin nəzarətinin neytral və ya beynəlxalq tərəfdaş (məsələn, ABŞ və ya Avropa şirkəti) tərəfindən həyata keçirilməsini qəbul edə bilər. Bu isə Moskvanın təsir imkanlarının azaldılması anlamına gələcək və Azərbaycanın praqmatik, balanslaşdırılmış xarici siyasət anlayışı ilə uzlaşır. Vaşinqtonda keçiriləcək bu görüşün ən mühüm tərəfi odur ki, söhbət sıradan diplomatik məsləhətləşmədən deyil, dövlətlərin ali siyasi rəhbərliyi səviyyəsində keçirilən görüşdən gedir. Bu isə onu göstərir ki, tərəflər - həm Azərbaycan, həm də Ermənistan məsələni son mərhələyə daşımaq üçün ciddi iradə nümayiş etdirirlər”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

## Görüşəcəkləri dəqiqləşdi

**Vladimir Putin və Donald Tramp arasında yüksək səviyyəli görüşün keçirilməsi barədə razılıq əldə olunub. Sammitin təşkili ilə bağlı hazırlıq işlərinə start verilib.**

Bu barədə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov məlumat verib.

“Amerika tərəfinin təklifi ilə yaxın günlərdə Putin və Tramp arasında ikitərəfli yüksək səviyyəli görüşün keçirilməsi barədə prinsipial razılıq əldə olunub”, - Uşakov bildirib. Onun sözlərinə görə, görüşün keçiriləcəyi məkan artıq müəyyən olunub və Kremlin bu barədə əlavə məlumat verəcəyi gözlənilir: “Görüşün gələn həftə baş tutması planlaşdırılır, lakin hazırlıq işlərinin neçə gün çəkəcəyini indidən demək çətindir”.

## “Kreml Bakı ilə dost olsaydı belə...”

**Rusiya 2008-ci ildə Gürcüstana qarşı savaşanda Bakı-Tiflis-Ceyhan boru xəttinə real təhlükə yaranmışdı. Rusiyanın Gürcüstan ərazisinə atdığı mərmilərin boru xəttini zədələyəcəyi ehtimalı var idi. Həmin savaş uzansaydı, Kreml qəsdən boru xəttini zədələyə bilərdi. Çünki Azərbaycan neftinin Gürcüstan və Türkiyə üzərindən dünya bazarlarına nəqli Kremlin yaralı yerlərindən biri idi.**

Bu barədə politoloq Elxan Şahinoğlu qeyd edib. “Kremlinin müharibə ssenarisində dəyişən heç nə yoxdur, sadəcə, indi hədəfdə Gürcüstan deyil, Ukraynadır və bu dəfə Azərbaycan qazının Ukrayna üzərindən nəql olunan boru xəttinə zərbə endiriblər. Bunun Rusiya-Azərbaycan münasibətlərinin gərginliyi ilə əlaqəsi azdır. Azərbaycan Ukraynaya qaz nəql etməyə başlayıb. Kreml raket zərbələri vasitəsilə bunun qarşısını almağa çalışır. Yəni Azərbaycan-Rusiya münasibətlərində bəlli gərginlik olmasaydı belə, Kreml Ukraynaya nəql həyata keçirilən boru xəttinə zərbə endirəcəkdi”, - politoloq vurğulayıb.

Qeyd edək ki, Rusiya hərbçiləri Odessa vilayətində magistral qaz kəmərinə zərbələr endirib. Bu kəmər vasitəsilə Ukrayna Azərbaycandan qaz alır.

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025



## Kondisioneri qoşmayan avtobus sürücüləri cəzalanacaq

**Yay fəslinin 40 dərəcəyə çatan isti günlərində ictimai nəqliyyatda, eləcə də taksilərdə kondisionerin işləməməsi və ya ümumiyyətlə olmaması sərnişinlər arasında ciddi narazılıq doğurur.**

Məsələ ictimai nəqliyyatda sərnişin hüquqları və təhlükəsizlik baxımından da suallar doğurur.

Maraqlıdır, bu hal yol hərəkəti haqqında qanunvericilikdə necə tənzimlənir?

Mövzu ilə bağlı Bizim.media-ya açıqlama verən nəqliyyat üzrə ekspert Aslan Əsədov bildirib ki, istər yay, istərsə də qış mövsümündə havalandırma sistemlərinin işləməməsi sərnişinlərin narahatlığına səbəb olur: "Birinci növbədə insanlar diskomfort yaşayır, bu isə ictimai nəqliyyata olan inamı azaldır. Təəssüf ki, bəzi sürücülər və ya daşıyıcı şirkətlər düşünür ki, kondisionerin işləməməsi yanacağa qənaət edir. Bu isə tamamilə yanlış yanaşmadır. Əksinə, kondisionersiz nəqliyyat həm sərnişinlərin sağlamlığına, həm də xidmət keyfiyyətinə mənfi təsir göstərir".

Ekspertin sözlərinə görə, bu cür halların qarşısını almaq üçün daşıyıcılara qarşı inzibati tədbirlərin gücləndirilməsi və ictimai nəqliyyatda xidmət mədəniyyətinin artırılması vacibdir.

Qeyd edək ki, "Avtomobil nəqliyyatı haqqında" Qanuna əsasən, daşıyıcı sərnişin daşımalarını təhlükəsizlik və sanitar-gigiyenik norma və qaydalara uyğun şəkildə təşkil etməlidir.

İctimai nəqliyyat vasitələrində havalandırma sistemlərinin işlək vəziyyətdə olması da bu tələblərə daxildir. Əks halda, daşıyıcı qanunvericiliklə nəzərdə tutulmuş qaydada cərimələnə bilər.

# Şəmkirdə 7 nəfərin sonunu gətirən qəzada şok detal

## Nəqliyyat Agentliyi və DYP məlumat yaydı: "Həyatınızı bu sürücülərə..."

**Avqustun 7-də Şəmkir rayonunda baş vermiş ağır yol qəzasında 7 nəfər ölüb, 6 nəfər xəsarət alıb. Ölənlər - 1992-ci il təvəllüdlü Bayramov Şadət, Bəsti Nəbiyeva, (1975) Aydın Pənahov (1977), Qızxanım Tomayeva (1962), Kənan Məmmədov (2008), Fəxriyyə Novruzova (1978) və 1966-cı il təvəllüdlü Bağırov Arifdir.**

Xəsarət alanlar isə 1975-ci il təvəllüdlü Şahniyar Pənahova, 1969-cu il təvəllüdlü Kamran Məmmədov, 2004-cü il təvəllüdlü Nərmin Əliyeva, 1995-ci il təvəllüdlü Məcid Qəribov və 1970-ci il təvəllüdlü Bəkinaz Gözəlovadır. Qeyd edək ki, qəza "Mercedes Sprinter" markalı avtomobilin yük maşınına çırpılması nəticəsində baş verib.

Şəmkir rayonu ərazisində baş verən qəzada iştirak edən hər iki nəqliyyat vasitəsinin daşımalara buraxılış vəsiqəsi və buraxılış kartı olmayıb. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi məlumat yayıb.

Qeyd edilib ki, 99-GO-705 dövlət qeydiyyat nişanlı "Mercedes-Benz" markalı "Sprinter" mikroavtobusu sifarişli sərnişindaşımanı fərqlənmə nişanı, daşımalara buraxılış vəsiqəsi və buraxılış kartı olmadan həyata keçirib.

Həmçinin məlum olub ki, 20-DL-094 dövlət qeydiyyat nişanlı "KamAZ" markalı yük nəqliyyat vasitəsinin də daşımalara buraxılış vəsiqəsi və buraxılış kartı olmayıb: "Nəqliyyat vasitələri qanunvericiliyin tələblərinə uyğun olaraq, reysqabağı texniki müayinə, sürücülər isə tibbi müayinədən keçməyib. Yol-nəqliyyat hadisəsinə səbəb olan amillərin təyin edilməsi üçün müvafiq araşdırmalara başlanılıb. Hadisə hüquq-mühafizə orqanları tərəfindən araşdırılır".




Qaxda istirahətdən qayıdan uşaq bağçasının işçiləri də yol qəzasına düşüb.

Hadisə Qax-İlisu avtomobil yolunun Qaxbaş kəndi ərazisindən keçən hissəsində baş verib. Rayonun İlisu kəndindən Qax şəhəri istiqamətində hərəkətdə olan sərnişin daşıyan mikroavtobus idarəetmədən çıxaraq yolun kənarındakı işıq dirəyinə çırpılıb.

Qəza zamanı mikroavtobusda olan rayonun Qum kənd sakinləri 65 yaşlı Xanpəri Osman qızı Nurməmmədova, 64 yaşlı Məryət Omar qızı İsaqova, 64 yaşlı Qalya Şakir qızı Sultanova və daha hələ şəxsiyyətləri məlum olmayan 3 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Yaralılar Qax Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Qəzada xəsarət alan şəxslərin hamısı Qax rayonu Qum kənd körpələr evi və uşaq bağçasının işçiləridir.

**Baş Dövlət Yol Polisi İdarəsi sərnişindaşıma fəaliyyəti göstərən şəxslərə və əhaliyə müraciət edib. Müraciətdə yay fəsli ilə əlaqədar paytaxt və bölgələr üzrə sərnişindaşıma fəaliyyətində artım müşahidə edildiyi qeyd edilib.** "Lakin bu sahədə müəyyən olunmuş qaydaların pozulması bəzən ağır yol-nəqliyyat hadisələri ilə nəticələnir. Baş Dövlət Yol Polisi İdarəsi bir daha sərnişindaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərə müraciət edərək onlara daşımaların mümkün qədər sutkanın gündüz vaxtı və yalnız müasir standartlara cavab verən iritutumlu avtobuslarla həyata keçirməyi, uzaq marşrutlar üzrə avtobuslara iki sürücü təhkim etməyi, reysqabağı sürücülərin tibbi müayinədən keçməsinə, nəqliyyat vasitələrinin isə texniki vəziyyətinin yoxlanılmasına ciddi nəzarət olunmasını tövsiyə edib", - məlumatda deyilir.

**Müraciətdə qeyd olunub ki, sərnişinlər də öz təhlükəsizliklərinə biganə qalmamalı, qanunsuz sərnişindaşımada iştirakçıya çevrilməməlidirlər:** "Nəzərə almaq lazımdır ki, qanunsuz daşımalar zamanı istismar olunan nəqliyyat vasitələrinin texniki vəziyyətinə lazımi qaydada nəzarət edilmir. Eyni zamanda əksər hallarda bu işə müvafiq sürücülük kateqoriyası və kifayət qədər iş təcrübəsi olmayan sürücülər cəlb edilir ki, onların da reysqabağı tibbi müayinəsi aparılmır.

Dəyərli sərnişinlər! Səfərlərinizi təsadüfi şəxslərə etibar etməyin. Bu, mənzil başına sağ-salamat çatmanızın öncədən sığortalanması deməkdir".

❑ **"Yeni Müsavat"**

# Bakıda açıq havada işlər dayandırılır?

## Təkcə aran rayonlarında deyil, paytaxtda da yandırıcı istilər insan həyatı üçün təhlükəlidir

**Son günlər havanın temperaturu xeyli yüksəlib. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, son günlər ölkə ərazisində isti hava şəraiti davam edir.**

Havanın maksimal temperaturu Bakıda və Abşeron yarımadasında 35-40, dağlıq rayonlarda 30-34, Aran rayonlarında, eyni zamanda Naxçıvan MR-də 36-41 dərəcə isti qeydə alınır.



Məlumdur ki, havanın temperaturu 41 dərəcə selsidən çox olan hava şəraitində əmək qanunvericiliyinin tələblərinə əsasən işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görmək işəgötürənin əsas vəzifələrindən biridir.

Belə ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu 41 dərəcə selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır.

İşçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Məcəlləyə əsasən, bu fasilələr iş vaxtına daxil edilir və fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

Anomal istilərdə əmək qanunvericiliyinin tələblərinin qorunması üçün həmkarlar təşkilatları hansı profilaktik tədbirlər həyata keçirir?

**Mövzu ilə bağlı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından (AHİK) Bizim.media-ya bildirilib ki, qurum işçilərin isti hava şəraitində sağlamlığının və təhlükəsizliyinin qorunması sahəsində aktiv və sistemli fəaliyyət göstərir:** "AHİK iş yerlərində fasilələrin verilməsi və işin dayandırılması qaydalarının Azərbaycan Respublikası Əmək Məcəlləsi ilə tam uyğunluğunu təmin etmək məqsədilə mütəmadi olaraq ictimai nəzarət həyata keçirir.

Nümayəndələri vasitəsilə işəgötürənlərin qanunvericiliyə əməl etməsinə diqqət yetirir, işçilərin hüquqlarının pozulması hallarına qarşı operativ tədbirlər görür və media vasitəsilə bununla bağlı üzvlərə maarifləndirici məlumatlar çatdırır.

Eyni zamanda, AHİK işçilər və işəgötürənlər arasında isti hava şəraitində təhlükəsizlik qaydaları mövzusunda seminarlar təşkil edərək sağlam və təhlükəsiz iş şəraitinin yaradılmasına dəstək göstərir.

Bu tədbirlərdə işçilərə isti havada özlərini qorumaq, fasilələrdən düzgün istifadə etmək və sağlamlıq risklərini azaltmaq barədə ətraflı məlumatlar verilir.

AHİK kollektiv müqavilələrdə də isti hava şəraitində iş vaxtının tərkib hissəsi olan fasilələrin verilməsi, işin dayandırılması və əməkhaqqının tam ödənilməsi kimi prinsiplərin dəqiq əks olunmasında ictimai nəzarət edir.

Bu fəaliyyətlər nəticəsində AHİK işçilərin isti hava şəraitində sağlam və təhlükəsiz iş şəraitində çalışmasını təmin etməklə, həm qanunvericiliyin icrasına ictimai nəzarəti həyata keçirir, həm də işçilərin əməyinin və sağlamlığının müdafiəsində etibarlı tərəfdaş kimi çıxış edir".

# "Putin öz məqsədlərindən əl çəkməyib..."

## "Kreml Trampın komandasını parçalamağa çalışır" - ISW

**Rusiya Trampın komandasında fikir ayrılığı toxumu səpməyə çalışır. Moderator.az xəbər verir ki, bu barədə Amerikanın Müharibənin Öyrənilməsi İnstitutu (ISW) məlumat yayıb.**

Analitiklər qeyd edir ki, bu, Moskvanın Kiyevlə bağlı irəliləyən sülh təşəbbüslərini ləngitmək və Trampın avqustun 8-dək elan etdiyi müddətə qədər prosesə nəzarəti ələ almaq məqsədilə həyata keçirdiyi geniş miqyaslı informasiya əməliyyatının bir hissəsidir. Məlumatı Müharibənin Tədqiqi İnstitutu (ISW) yayıb.



Rusiya Trampın xüsusi emissarı Stiv Uitkoffun Moskvaya səfərindən maksimum istifadə edərək onu guya rasional və müdrik danışıqlar tərəfdarı kimi təqdim edib, Trampın sərt mövqeyini isə emosional və qeyri-praktik göstərməyə çalışıb. Bu isə ABŞ daxilində Trampın komandasını zəifləməyə və daxili fikir ayrılıqları görüntüsü yaratmağa hesablanıb.

Kremlə bağlı media qurumları və Rusiya rəsmiləri Uitkoffun Putinə səfərini geniş şəkildə işıqlandırıb. Dövlət Dumasının deputatı Qriqori Karasin bildirib ki, Uitkoffun səfərinin nəticələrinin Trampın "emosional çıxışlarından" fərqli olaraq "konkret" olacağına ümid edir. Bu sözlər Rusiya mətbuatında təkrar-təkrar vurğulanaraq, Trampın siyasətinə qarşı yumşaq ironiya kimi istifadə olunub.

Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər üzrə sədr müavini Aleksey Çepa isə iddia edib ki, Tramp Uitkoffu Moskvaya göndərməklə əvvəlki ultimatumların yumşaldılmasına nail olmaq istəyib. Bu isə Çepanın fikrincə, Tramp administrasiyasının qərarsız və ziddiyyətli imicini gücləndirə bilər.

Kremlə yaxın biznesmen və Rusiya İnsan Haqları Şurasının üzvü Aleksandr Kots isə Trampı hər gün ultimatum verməkdə günahlandıraraq, Uitkoffun görüşdən sonra təqdim edəcəyi təklifin Tramp tərəfindən "kiçik bir qələbə" kimi qəbul ediləcəyini iddia edib.

ISW bildirir ki, Kreml uzun müddətdir Ukrayna ilə onun müttəfiqləri, eləcə də ABŞ və Avropa arasında birlik və həmrəyliyi pozmaq üçün informasiya müharibəsindən istifadə edir. İndi isə eyni strategiya Tramp administrasiyasına qarşı tətbiq olunur. Məqsəd - ABŞ-ı birtərəfli güzəştlərə vadar etmək və Rusiya ilə yeni iqtisadi razılaşmalara yönəltməkdir. Bunu isə Trampın sülh üçün irəli sürdüyü ilkin şərtlər olmadan həyata keçirmək istəyirlər.

Avqustun 6-da Trampın emissarı Stiv Uitkoff Moskvada Vladimir Putinlə görüşüb. Rusiya prezidentinin müşaviri Yuri Uşakov bu görüşü "konstruktiv və faydalı" adlandırıb və tərəflər arasında Ukrayna ilə bağlı müəyyən "siqnalların" mübadilə olunduğunu bildirib. Ancaq rəsmi nəticələr açıqlanmayıb - nə Kreml, nə də Ağ Ev indiyədək görüşə dair ictimai bəyanat verməyib.

Görüşdə Rusiya Birbaşa İnvestisiyalar Fondunun rəhbəri, Kremlin aparıcı emissarı Kirill Dmitriyev də iştirak edib və dialoqu "uğurlu" adlandırıb. Tramp isə görüşü "son dərəcə məhsuldar" adlandıraraq, Uitkoff və Putinin "böyük irəliləyişə" nail olduqlarını deyib. O, Rusiyanın müharibəni dayandırmasının vacibliyini bir daha vurğulayıb. Lakin bu açıqlama da real razılaşmalarla müşayiət olunmayıb.

ISW vurğulayır ki, Vladimir Putin hələ də Ukrayna ilə bağlı müharibədə əvvəlki məqsədlərindən əl çəkməyib və onu davam etdirmək niyyətindədir. Buna görə də diktatoru mövqeyini dəyişməyə vadar edəcək yeganə yol Ukrayna ordusunun döyüş meydanında Rusiyaya ciddi itkilər verməsidir. Geri çəkilməyə məhz bu cür təzyiqlə nail olmaq mümkündür.

❑ **"Yeni Müsavat"**

# Ukraynalılar hansı sülhə razılaşır?

## 76 faiz Rusiyanın şərti sülh planı adı verilmiş variantı qəti rədd edib

**Kiyev Beynəlxalq Sosiologiya İnstitutu Ukrayna əhalisinin Rusiya ilə müharibədən qurtulmaq şərtlərinə münasibətini öyrənib. Sosioloqlar sorğuda mümkün sülhü üç varianta - şərti planlara bölüb: ABŞ-ın planı, Avropa İttifaqı və Ukraynanın planı, Rusiyanın planı.**

Novator.az-ın məlumatına görə, iyulun 23-dən avqustun 4-dək 1022 ukraynalı arasında aparılmış telefon sorğusuna qatılan şəxslərin 76 faizi Rusiyanın şərti sülh planı adı verilmiş variantı qəti rədd edib. Rusiya Ukraynanın təslim olmasını, ərazi itkilərini qəbul etməsini tələb edir. Sorğunun nəticələri belə sülhə razılaşanların nisbətini 17 faiz göstərir.

ABŞ-ın şərti sülh planı adı verilən plana respondentlərin 49 faizi "yox", 39 faizi "hə" deyib. Bu plana əsasən, bir qrup Avropa ölkəsi Ukraynanın təhlükəsizliyinə təminat verir, Rusiya işğal etdiyi ərazilərə nəzarəti saxlayır, ABŞ Krımı Rusiyanın tərkib hissəsi kimi tanıyır.

Avropa İttifaqı və Ukraynanın şərti sülh planı sayılan varianta sorğuda iştirak edənlərin 30 faizi mənfi, 54 faizi müsbət yanaşdığını deyib. Bu plan ABŞ və Avropanın Ukraynaya etibarlı təhlükəsizlik təminatı verməsini, Rusiyanın işğal etdiyi əraziləri əlində saxlamasını, amma bu nəzarətin hüquqi baxımdan tanınmamasını nəzərdə tutur.

2014-cü ilin fevralında Rusiya Ukraynanın Krım yarımadasını zəbt edib, martın 18-də bölgəni özünə birləşdirib, ardınca Donetsk və Luqansk vilayətlərinin bir hissəsini də tutaraq işğalçı rejimlər qurub. 2022-ci il fevralın 24-də Rusiya total hərbi əməliyyatlara başlayıb, oktyabrın 5-də Donetsk və Luqansk bölgələrini, eləcə də Zaporojye və Xerson vilayətlərini özünə birləşdirdiyini açıqlayıb.

İşğalçı savaş başqa bölgələri də əhatə edib, ölkənin hər yanına dağıdıcı silahlarla hücumlarla müşayiət olunur. Rusiya Ukraynanın təslim olub ərazi itkilərini rəsmən qəbul etməsini, tuta bilmədiyi ərazilərin boşaldılmasını, Krım, Donetsk, Luqansk, Zaporojye və Xerson bölgələrinin Rusiya ərazisi kimi tanınmasını istəyir.

# Fars mediasından absurd iddia

**Peyk müşahidələri göstərir ki, əvvəllər Aralıq dənizindən keçən və Türkiyədən sonra İrana daxil olan buludlar indi İran sərhədlərinə çatmadan Azərbaycana doğru yönəldilir.**

Axar.az xəbər verir ki, bunu İranın ali dini lideri Əli Xamneyinin ofisinin mətbuat orqanı olan "Keyhan" qəzeti yazıb.

"Ölkədə iqlim dəyişikliyinin baş verməsində düşmənlərin müdaxiləsinin olduğu ehtimalı var", - qəzet əlavə edib.

"Keyhan" yazının davamında İranda iqlim dəyişikliyinin baş verməsi üçün İsrailin Türkiyə ilə əməkdaşlıq etdiyini də iddia edib: "Hazırda Türkiyədəki 75 İsrail şirkəti İranın iqlim dəyişikliyi layihəsinə fokuslanıb".

Qeyd edək ki, "Keyhan" Əli Xamneyinin ofisinin mətbuat orqanıdır, baş redaktor Hüseyn Şəriyətmədari İran rəhbərinin birbaşa əmri ilə təyin olunub.

# Kremlin Qarabağ mövzusunda manipulyasiyası

**Rusiya dövlət təbliğat maşını Azərbaycanın Qarabağ regionu ilə bağlı məsələni yenidən gündəmə gətirərək, "artsax" kimi separatçı toponimlərdən istifadə etməklə, həmçinin Qarabağdan köç etmiş erməniəsilli sakinlərin mövzusunu manipulyasiya etməklə açıq-aşkar siyasi təzyiq göstərməyə çalışır. Bu cür ifadələr, o cümlədən Vladimir Medinskinin "Russia Today" telekanalına verdiyi müsahibədə söylədiyi qeyri-iradi kimi təqdim edilən fikirlər bütöv bir informasiya strategiyasının tərkib hissəsidir.**



Bu barədə Baku TV-nin hazırladığı süjetdə bildirilir. Müəllif vurğulayır ki, vahid siyasi xəttin tərkib hissəsi olan bu manipulyativ ifadələr Rusiya dövlət telekanallarında və sosial media platformalarında məqsədli şəkildə yayılır. "Məqsəd bir vaxtlar Azərbaycanın ərazi bütövlüyünü tanıyan və dost münasibət sərgiləyən Rusiya mediasının təbliğat kursunu dəyişmək, açıq şəkildə düşmənçilik mövqeyi nümayiş etdirməkdir".

Ekspert buna nümunə olaraq avqustun 6-na keçən gecə Rumıniya sərhədi yaxınlığında ABŞ və Azərbaycandan Ukraynaya qaz nəql edilən qaz infrastrukturu obyektini Rusiyanın onlarla pilotsuz uçuş aparatı ilə vurmasını göstərib.

"Rusiya dövlət kanalının təbliğatçısı Ruslan Ostaşko bu hücumu açıq şəkildə "Bakıya siqnal" adlandırıb və bildirib ki, Moskva Azərbaycan tərəfindən Rusiyanın başı üzərindən həyata keçirilən istənilən enerji marşrutlarını dayandırmağa çalışacaq. Belə çıxır ki, təbliğatçı kuklalara artıq "Azərbaycanı müstəqil enerji siyasəti aparmaq və özünə sərfəli olanlarla əməkdaşlıq etmək suveren hüququna görə təhdid etmək" təlimatı verilib. Diqqətəlayiq haldır ki, bütün bunlar Uitkoffun Moskvaya səfəri fonunda baş verir və düşünsək, Rusiyanın mifik geosiyasi maraqlarına deyil, neft maqnatlarının quldur məntiqinə işarə edir".

Süjetdə qeyd olunur ki, bu ssenarinin müəlliflərinin gözləntilərinə baxmayaraq, Rusiyanın Azərbaycana təzyiq üçün əlində ciddi rıçaqlar qalmayıb. Bakı artıq bir neçə dəfə bu cəhdləri neytrallaşdırdığını və istənilən addımı asanlıqla cavabsız qoymayacağını nümayiş etdirib.

# 41 dərəcə isti olacaq



**Avqustun 8-də ölkədə havanın 41 dərəcə isti olacağı gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Qeyd edilib ki, Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 24-28 isti, gündüz 34-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80%, gündüz 40-45% təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti, dağlarda gecə 16-21, gündüz 28-33 dərəcə isti olacaq.

# Nəbatat Bağında piknik sahəsi bağlandı

**Mərkəzi Nəbatat Bağında piknik sahəsi müvəqqəti olaraq bağlanıb.**

İqtisadiyyat.az xəbər verir ki, buna səbəb ümumi dezinfeksiya işlərinin aparılmasıdır.

Mərkəzi Nəbatat Bağından piknik sahəsinin ümumi dezinfeksiya işləri ilə əlaqədar olaraq müvəqqəti bağlandığı barədə məlumat təsdiqlənib.

Qeyd edək ki, bağda bir neçə gün əvvəl azyaşlını ilan sancması barədə məlumatlar yayılıb. Mərkəzi Nəbatat Bağından isə orada yaşayan istənilən növ canlıların, o cümlədən həşəratların mövcudluğunun mümkün olduğu açıqlanıb. Ziyarətçilərdən təyin olunmuş yerlərdə gəzmələri, azyaşlıları diqqətdən kənar qoymamaları xahiş edilib.

Bundan sonra isə iyulun 30-dan bağda sanitar-gigiyena tədbirləri çərçivəsində genişmiqyaslı dezinfeksiya işlərinə başlanılıb. Bağın giriş hissəsi, uşaq meydançası və piknik zonasına xüsusi preparatlar tətbiq edilərək təmizlənib. Ümumi dezinfeksiya işləri sistemli şəkildə davam etdirilir.

# Ətraf mühiti çirkləndirən 15 nəfər cərimələndi

**Biləsuvar rayonunda ətraf mühiti çirkləndirən 15 nəfər barəsində inzibati tədbir görülüb.**

DİN mətbuat xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları ətraf mühitin çirkləndirilməsinə qarşı növbəti əməliyyat keçiriblər.

Əməliyyat zamanı rayonun müxtəlif ərazilərində məişət tullantılarının urnalardan kənara atılmasına, antisanitar vəziyyət yaradılmasına görə 15 nəfər cərimələnib.

Rayon ərazisində ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, sanitariya-gigiyena qaydalarına riayət olunması məqsədilə nəzarət-profilaktiki tədbirlər davam etdirilir.

**Azərbaycanı qarşıdakı aylarda daha ciddi quraqlıq təhlükəsi gözləyir. Bu xəbərdarlıq təkcə hava proqnozlarına əsaslanmır, həm də uzunmüddətli iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması və ekosistemlərdəki balansın pozulması ilə əlaqədar dərin araşdırmalara söykənir. İyun-avqust ayları ərzində çayların sululuğunun kəskin azalması, yağıntıların minimum həddə enməsi və su anbarlarında toplanmış resursların sürətlə tükənməsi ölkəni fakt qarşısında qoyur.**

# Ölkəni ciddi quraqlıq təhlükəsi gözləyir

## Su böhranına hazırıqmı?



**Mövzu ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov** bildirib ki, son illərdə iqlim dəyişikliklərinin təsiri daha da güclənib, temperatur artımı və yağıntıların qeyri-bərabər paylanması quraqlıq hallarını artırıb: "Ən çox təsirlənən bölgələr arasında aran rayonları ön sıralardadır. Bu vəziyyət kənd təsərrüfatı məhsuldarlığını azaldır, torpaq eroziyası və biomüxtəlifliyin itirilməsi ilə nəticələnir. Təəssüf ki, bu mənzərə təkcə bizə aid deyil, su ehtiyatlarının azalması qlobal təhlükə olaraq dəyərləndirilir".

İqlim dəyişikliyi və quraqlığın iqtisadi təsiri təkcə statistik göstəricilərlə məhdudlaşmır. Bu proseslər ölkənin ərzaq təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Aran bölgəsində suvarma çətinlikləri artıq bir sıra kənd təsərrüfatı məhsullarının becərilməsinə ciddi maneə törədir. Fermerlər məhsul itkisi, xərclərin artması və gəlir azalması ilə üz-üzə qalırlar. Suya çıxış imkanları məhdudlaşdıqca, əkin sahələrinin sahəsi də azalır.

Beynəlxalq təcrübə göstərir ki, su idarəetməsinin düzgün aparılmaması yalnız kənd təsərrüfatına deyil, bütövlükdə sosial sabitliyə və iqtisadi inkişafa təsir edir. Dünya Bankının hesabatına görə, iqlim dəyişiklikləri ilə mübarizə üçün tədbirlər görülmədiyi təqdirdə, inkişafda olan ölkələrdə kənd təsərrüfatı məhsuldarlığı 2050-ci ilə qədər 25%-dək azala bilər. Azərbaycan da bu risk qrupundadır.

Problemin başqa bir aspekti də ölkənin ekoloji balansının pozulması ilə bağlıdır. Quraqlıq meşələrin quruması, torpağın şoranlaşması və göllərin səviyyəsinin azalması ilə nəticələnir. Bu isə yalnız təbiətə deyil, içməli su təchizatına da birbaşa zərbə vurur. Mütəxəssislər hesab edirlər ki, içməli su ehtiyatları ilə bağlı təzyiqlər yaxın illərdə daha da artacaq.

Bəzi rayonlarda artezian quyularının səviyyəsinin kəskin aşağı düşməsi, kəndlərin bir qisminə suyun fasilələrlə verilməsi artıq reallığa çevrilib. Bəzi hallarda məktəblər, xəstəxanalar və ictimai obyektlər günlərlə susuz qalır.

Rəsmi məlumatlara əsasən, su qıtlığının qarşısının alınması məqsədilə hökumət bir sıra layihələr həyata keçirir. Xüsusilə hidromeliorasiya sistemlərinin təkmilləşdirilməsi, yaşıllıqların genişləndirilməsi, süni su hövzələrinin yaradılması və suyun təkrar istifadəsi kimi tədbirlər nəzərdə tutulub. Eyni zamanda Kür-Araz çay sistemində su idarəetmə monitorinqi, müasir suvarma texnologiyalarının tətbiqi və fermerlərə texniki dəstək proqramları da gündəmdədir.

Lakin müstəqil ekspertlər bu tədbirlərin səmərəliliyi ilə bağlı suallar qaldırır. Onların fikrincə, problemin miqyası ilə görülən tədbirlər arasında ciddi disbalans var. Su itkilərinin əsas hissəsi hələ də köhnə infrastrukturdan, açıq kanallardan və su sızmalarından qaynaqlanır. Bu sahədə struktur islahatlara ehtiyac olduğu açıq görünür.

Bugünkü quraqlıq reallığı sabahın su müharibələrinin başlanğıcı ola bilər. Azərbaycan bu təhlükəni ciddiyə almalı, strateji su idarəçiliyi konsepsiyasını gücləndirməli, ekoloji və iqtisadi prioritetlərini yenidən müəyyənləşdirməlidir. Su artıq təkcə təbii resurs deyil, təhlükəsizlik məsələsidir. Bu təhlükəyə hazırlıqlı olmaq üçün isə vaxt itirməyə imkan yoxdur.

**Ekoloq Rövşən Abbasov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Azərbaycanda suya əlçatanlığa bir çox amillər təsir edir. Onun sözlərinə görə, bura həm təbiət, həm də insan mənşəli amillər aiddir:** "Təbii amillərə iqlim dəyişmələri aiddir. Bu, Azərbaycanın su ehtiyatlarına mənfi təsir edir. Çünki temperaturun qalxması həm torpaqda, həm də insanların həyatında suya olan tələbatı artırır. Digər tərəfdən isə su ehtiyatlarının azalması baş verir. Çaylarda əvvəlki kimi su axını yoxdur. Çayların axını orta hesabla 11 -20 faizə qədər azalıb ki, bu da öz növbəsində suya əlçatanlığa ciddi təsir edir, su ehtiyatlarının ümumi miqdarını azaldır. Verilən proqnozlar göstərir ki, yaxın illərdə Azərbaycanda su ehtiyatları 30, hətta 40 faizə qədər iqlim dəyişmələrinin təsiri altında azala bilər.

Su ehtiyatımızın azalmasında insan mənşəli amillər daha çoxdur. Bu amillər də iki yerə bölünür: ölkə daxilində və xaricində gedən proseslər. Sual oluna bilər ki, ölkə xaricinin Azərbaycana nə aidiyyəti var. Məsələ burasındadır ki, ölkəmizdə su ehtiyatlarının 70 faizindən çoxu digər ölkələrin ərazisində formalaşır və kür, Araz kimi transsərhəd çaylar vasitəsi ilə ərazimizə daxil olur. Bu çayların keçdiyi ölkələrdə - Türkiyədə, Gürcüstanda, İranda suya, geriyə qaytarılmayan su götürmələri, su anbarlarının tikintisi, əlbəttə, Azərbaycana gələn su ehtiyatlarının miqdarını tədricən azaldır, həlli çox çətin olan proseslər yaradır. Digər tərəfdən, çaylar bu ölkələrin ərazisində çirklənir. Kür və Araz da daxil olmaqla qonşu ölkələrdən Azərbaycana 20-dən çox çay daxil olur. Bu çaylar bizim su ehtiyatımızın əsasını təşkil edir".

**Ekoloq deyib ki, paralel olaraq Azərbaycan ərazisində də suya olan tələbat artıb:** "Xüsusilə iri fermer təsərrüfatlarının artması, əkilən ərazilərin çoxalması buna səbəb olub. Statistikaya baxsaq, hələ 90-cı illərin ortalarında Azərbaycanda suvarılan əkin ərazilərinin ümumi sahəsi 700-800 min hektar idisə, indi bu rəqəm 1 milyon 800 mindir. Bu isə öz növbəsində suya olan tələbatı artırır. Azərbaycanda su qəsasən kənd yerlərində suvarma məqsədilə götürülür. Götürülən suyun böyük hissəsi isə itkiyə gedir. Ənənəvi suvarma metodları var ki, bunlar su itkisinə səbəb olur. Məsələn, selləmə suvarma zamanı bəzən tarlaya bitkilərə lazım olduğundan 20 dəfə artıq su verilir. Bu problemlər o qədər çoxdur ki, sadalamaqla bitmir. Lakin ümumi nəticədə suya çıxış azalır, ən pis tərəf budur. Susuzluqdan daha çox kiçik fermerlər əziyyət çəkir".

**R. Abbasov bildirir ki, problemin həlli üçün ilk olaraq qonşu ölkələrlə danışıqlar aparmaq və beynəlxalq institutları prosesə cəlb etmək lazımdır:** "Qonşu ölkələrdə, daha dəqiq desək, Ermənistanda baş verən bu özbaşınalıqlar bizim su təhlükəsizliyimizə bu qədər neqtiv təsir etməsin. Bir neçə il bundan öncə Ermənistanın su təsərrüfatı naziri demişdi ki, Ermənistan ərazisindən Azərbaycana bir qram da su getməməlidir. Ermənistan ərazisindən 15-ə yaxın çay Azərbaycan gəlir. Onlar bu çayları mədən tullantıları ilə çirkləndirirlər. Nəticədə su ehtiyatlarımız təhlükə altında olur.

Bütün bunları nəzərə alaraq, deyə bilərəm ki, fermerlərimiz sudan istifadədə qənaətli suvarma metoduna keçməlidir. Bütün torpaq kanalların sürətlə betonlaşdırılması həyata keçirilməlidir. Gələcəkdə isə boru sistemindən istifadə edilməlidir. Suyun bazar imkanları araşdırılmalıdır. Sayğac sistemləri tətbiq edilməlidir ki, fermerlər israfa yol verməsin. Həmçinin çaylardan götürülən suyun miqdarı azaldılmalıdır. Azərbaycanda virtual su qiymətləndirilməsinin aparılması təklif olunur.

Şəhərlərdə də içməli suya olan tələbat artıb. Buna görə də iri şəhərlərdə sudan istifadəni effektiv etmək problemdən çıxış yolu olar. Bakıya verilən suyun 50 faizi itkiyə gedir. Bu itkiləri azaltmaq lazımdır. Həmçinin çirkab sularını təmizləyib yenidən istifadə etmək olar. Xəzər dənizinin suyunun da duzsuzlaşdırma imkanlarından yararlanmaq olar".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8748) 8 avqust 2025




# Londonda Mahmudovlarla bağlı yeni pul qalmaqalı

## Hüquqşünas deyib ki, əgər Mahmudovların varidatı riskli mənbələrdən gəlibsə, bu zaman istintaq başlaya bilər

**Böyük Britaniyada tanınmış vəkil Rori Fordays Azərbaycanın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun ailəsi ilə əlaqəli vəsaitlərin yoxlanılmasında etinasızlıq göstərdiyinə görə 32 min 500 funt sterlinq, təxminən 42 min dollar məbləğində cərimələnib. Bu barədə Korrupsiya və Mütəşəkkil Cinayətkarlığın Araşdırılması Mərkəzi (OCCRP) məlumat yayıb. Böyük Britaniyanın Hüquqşünaslar üzrə İntizam Tribunalı (SDT) Fordaysın 5 il müddətinə hüquq firmalarında rəhbərlik və ya komplayens (compliance) vəzifələrində çalışma hüququnu da məhdudlaşdırıb. Bundan əlavə, o, 50 min funt sterlinq məbləğində məhkəmə xərclərini ödəməyə məcbur edilib.**

SDT Fordaysın maliyyə yoxlamalarını "səthi, sistemsiz və sadəlövh" adlandırıb. İstintaq zamanı müəyyən olunub ki, 2013-2015-ci illər arasında Fordaysın direktoru olduğu Taylor Fordyce hüquq firmasının hesabına Eldar Mahmudovun oğlu Anar Mahmudovun ailə üzvləri tərəfindən iki dəfə iri məbləğdə vəsait köçürülüb.

OCCRP-nin məlumatına görə, bu vəsaitlərdən biri - 1,9 milyon funt sterlinqdən çox məbləğ - "Continental Properties Limited" adlı şirkət vasitəsilə Cənubi İngiltərədə ticarət obyektinin alınmasına sərf edilib. Dəqiq ünvan açıqlanmasa da, jurnalist araşdırmalarına əsasən, 2015-ci ilin mayında həmin şirkət Nyuberi şəhərində dəyəri 1,85 milyon funt olan obyekt alıb. Məlumata görə, bu əmlakda Pizza Hut, Greggs və Salvation Army kimi müəssisələr fəaliyyət göstərir.

Tribunal həmçinin qeyd edib ki, Fordays Mahmudov ailəsinin nümayəndələri tərəfindən təqdim edilən ziddiyyətli məlumatlara həddən artıq güvənib və əmlak alışını tələb olunan sənədləri təqdim etmədən həyata keçirib.

OCCRP-nin əvvəlki araşdırmalarında qeyd olunurdu ki, Mahmudovlar ailəsi Avropada dəyəri azı 100 milyon avro olan biznes imperiyası qurub.

Mahmudovlar ailəsinin vəkili isə OCCRP-yə cavabında bildirib ki, ailənin sərvətinin kökü 19-cu əsrə qədər gedib çıxır və bütün aktivlər qanuni yolla əldə edilərək rəsmiləşdirilib. Bu qalmaqaldan sonra Mahmudovun varidatının mənbəyi ilə bağlı araşdırma aparıla bilərmi?

Zamirə Hacıyeva kimi Mahmudovlar da Londonda "sərvətin mənbəyini izah etmə" imtahanından keçə biləcəklərmi? Yaxud da bu qalmaqal onların beynəlxalq reputasiyasına və sərvətinə ciddi zərbə vuracaqmı?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, bu qalmaqal kifayət qədər ciddi görünür:** "Londonda baş verən son hadisə, vəkil Rori Fordaysın Mahmudov ailəsinə aid vəsaitlərlə bağlı maliyyə yoxlamalarında səhlənkarlığa görə cəzalandırılması əslində bir hüquqşünasın məsuliyyətsiz davranışı ilə kifayətlənə biləcək hal deyil. Bu hadisə eyni zamanda Böyük Britaniya qanunvericiliyində yer alan və İzaholunmamış Sərvət Sorğusu (Unexplained Wealth Order -UWO) kimi tanınan ciddi hüquqi mexanizmin yenidən gündəmə gəlməsinə səbəb ola bilər. Mahmudov ailəsinin Avropada 100 milyon avrodan artıq dəyəri olan biznes imperiyası qurması, ancaq bu sərvətin mənbəyinin tam şəkildə şəffaf olmaması artıq ictimai və hüquqi suallar doğurur. Xüsusilə də Böyük Britaniyada son illərdə naməlum sərvət sahiblərinə qarşı ciddi mübarizə aparıldığı, offşor fondlar və korrupsiya riskləri ilə əlaqəli sərt qanunların tətbiq olunduğu bir vaxtda Mahmudovlarla bağlı bu cür maliyyə köçürmələrinin səthi yoxlamalarla həyata keçirilməsi hüquq-mühafizə orqanları üçün bir siqnal ola bilər".

**Natiq Ələsgərov deyib ki, bu baxımdan, Mahmudovların vəziyyəti 2018-ci ildən başlayaraq İzaholunmamış Sərvət Sorğusu mexanizminin ən tanınmış nümunəsi olan Zamirə Hacıyeva işini xatırladır:** "Eldar Mahmudovun qudası Zamirə Hacıyeva Azərbaycan Beynəlxalq Bankının sabiq rəhbəri Cahangir Hacıyevin həyat yoldaşı olaraq, Londonda "Harrods" mağazasında 10 il ərzində 16 milyon funt sterlinqdən çox pul xərcləmişdi. Bu xərclərə bahalı zinət əşyaları, lüks brendlər və eksklüziv xidmətlər daxil idi. Onun adına qeydiyyatda olan əmlaklar, o cümlədən "Knightsbridge"də yerləşən 15 milyon funtluq villa və "Berkshire"dəki golf klubu, İngiltərə Milli Cinayət Agentliyinin (NCA) diqqətini çəkmiş və "naməlum sərvət"in izahı tələb olunmuşdu. Hazırda Mahmudov ailəsi ilə bağlı ortaya çıxan məlumatlar da Zamirə Hacıyeva işində olduğu kimi, İzaholunmamış Sərvət Sorğusu tətbiqi ehtimalını gündəmə gətirir. Fordaysın sadəlövh və səthi yoxlamaları hüquqi müstəvidə diqqətsizlik kimi qiymətləndirilsə də, bu hadisənin arxa fonunda çox daha böyük bir məsələ - potensial korrupsiya və qanunsuz yolla əldə edilən sərvətin yuyulması ehtimalı dayanır. Britaniya hüquq sistemi belə hallarda məsuliyyəti təkcə vəkilin üzərinə qoymur, vəsaitlərin mənşəyi və istifadəsi də dərin təhlil olunur".

**Natiq Ələsgərov deyib ki, əgər Mahmudovların təqdim etdiyi maliyyə məlumatları qeyri-dəqiq, natamam və ya inandırıcı deyilsə, yaxud varidat riskli mənbələrdən gəlibsə, bu zaman NCA istintaqa başlaya bilər:** "Bu halda Mahmudov ailəsi malik olduğu əmlak və sərvətin qanuni mənbəyini məhkəmə qarşısında izah etməyə məcbur olacaq. Əgər bunu edə bilməsələr, Britaniya qanunlarına görə bu əmlakların müsadirəsi mümkündür. Zamirə Hacıyeva işində də məhz bu mexanizm işlədi və nəticə etibarilə onun əmlakları donduruldu, bəzi aktivlər müsadirə edildi. Eyni prosedur Mahmudovların Avropadakı aktivləri üçün də tətbiq edilə bilər. Digər tərəfdən, bu hadisə Azərbaycanın da daxil olduğu ölkələrin maliyyə şəbəkələrinin beynəlxalq miqyasda necə izləndiyini ortaya qoyur. Bu qalmaqal göstərir ki, sadəcə, vəkilin cəzalandırılması ilə məsələ bitməyəcək. Bu, Mahmudov ailəsinin Avropadakı sərvətinin legitimliyi ilə bağlı genişmiqyaslı sorğuların başlanğıcı ola bilər".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# "Çirkli pulları yuyanlar" üçün kabus kimi qanun

## Bir sıra təsərrüfat subyektlərinin qeyri-şəffaf fəaliyyəti üzə çıxacaq; iqtisadçı: "Bu, arxasında böyük güclər olan təsərrüfat subyektlərinə təsir etməyəcək, çünki..."

**Bu ilin may ayında qəbul edilən yeni qanuna görə Azərbaycanda şirkətlər "gerçək sahibləri" barədə daha şəffaf məlumatları təqdim etməlidir. Fed.az bildirir ki, bu, Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında edilmiş və may ayında qüvvəyə minmiş dəyişikliklərdə nəzərdə tutulub.**



2025-ci il mayın 15-dən qüvvəyə minmiş yeni qanun dəyişikliyi ilə hüquqi şəxslərin, yəni şirkətlərin və təşkilatların əsl idarəçiləri və benefisiarları, yəni əsl sahibləri dəqiq açıqlanacaq. Dəyişikliyinə əsasən, şirkətlər öz benefisiar mülkiyyətçiləri barədə məlumatları dövlət orqanlarına təqdim etməli olacaqlar. Bəzi məlumatlara görə, benefisiarlar haqqında məlumatlar məlumatların ictimaiyyətə açıq olmayacağı, yalnız aidiyyəti dövlət qurumlarının bu məlumatlara çıxış imkanının olacağı da qeyd edilir. Amma aprel ayında bununla bağlı "Kommersiya sirri haqqında» Qanuna də dəyişiklik edilib, dəyişikliyə əsasən, şirkətin benefisial mülakiyyətçiləri, yəni əsl sahibləri haqqında məlumatlar daha kommersiya sirri hesab edilməyəcək.

Bundan sonra Azərbaycanda yeni şirkət qurmaq istəyənlər qeydiyyat zamanı öz benefisiar mülkiyyətçiləri barədə ətraflı məlumat verməli olacaqlar. Bu yanaşma həm şəffaflığın artırılması, həm də çirkli pulların yuyulması və maliyyə cinayətlərinə qarşı mübarizənin gücləndirilməsi baxımından mühüm addım kimi dəyərləndirilir.

**İqtisadçı Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, bu proses özlüyündə kifayət qədər müsbət bir haldır:** "Çünki iqtisadiyyatın şəffaflaşdırılması, kölgə iqtisadiyyatının azaldılması və ən azından haqsız rəqabətə qarşı mübarizənin nəticə verə bilməsi baxımından bu hal müsbət qiymətləndirilə bilər. Amma burada bir məsələni qeyd etdim ki, bu dəyişiklikdən daha çox təsirlənən təbəqə - yəni bu istiqamətə zidd fəaliyyət göstərən, lakin arxasında böyük güclər dayanmayan təsərrüfat subyektləridir.

Şəffaf fəaliyyəti yoxdur, amma arxasında böyük güclər dayanırsa, onların fəaliyyəti toxunulmaz qala bilər. Bu halda, arxasında böyük güclər dayanmayan və şəffaf fəaliyyəti olmayanların fəaliyyəti birmənalı şəkildə ya dayandırılacaq, ya da məcburi şəkildə şəffaflaşdırılacaq. Yəni bu dəyişiklik həmin təbəqənin - orta səviyyəli və himayəsiz subyektlərin - şəffaflaşmasına xidmət edəcək.

O təbəqə ki, ədalətlidir, o təsərrüfat subyektləri ki, şəffaf və aydın şəkildə, qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərirlər - bu dəyişiklik onlar üçün elə də təsir etməyəcək. Onlar onsuz da şəffaf fəaliyyət göstərirlər və bu dəyişiklik təhlükəli deyil.

Təhlükə daha çox orta mövqedə olan, arxasında böyük güclər dayanmayan təsərrüfat subyektləri üçün olacaq. Çünki onların qeyri-şəffaf fəaliyyəti üzə çıxacaq, bu fəaliyyət ya dayandırılacaq, ya da şəffaflaşdırılacaq. Amma o təsərrüfat subyektlərinin ki, arxasında daha böyük güclər dayanır, mən inanmıram ki, bu dəyişiklik onların fəaliyyətində ciddi bir dəyişiklik yaratsın.

Onsuz da həmin şirkətin gizli sahibləri müəyyən yollar taparaq özlərini gizli saxlaya biləcəklər. Zatən prosesdə de-fakto və de-yure iştirakçılıq var. De-fakto iştirakçı olmayanların - heç bir yerdə imzası olmayanların, heç bir sənəddə adı çəkilməyənlərin - bu prosesdən sonra da kənarda qalması, lakin yenə də kənardan söz sahibi və idarəedici olaraq mövqelərini saxlaması, maneçilik törətməyəcək.

Amma ümumilikdə, bu proses heç olmasa orta səviyyədə olan, arxasında böyük güclər dayanmayan, lakin qeyri-şəffaf fəaliyyət göstərən təsərrüfat subyektlərinin şəffaflaşdırılması baxımından əhəmiyyətlidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (8738) 8 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Millətlərarası gərginliyin yeni dalğası

## Artan münaqişələr, dini qruplaşmalar, nüvə təhdidi...



**Hazırda dünyanın müxtəlif bölgələrində - qlobal, regional və yerli səviyyələrdə - bir çox ciddi gərginlik və münaqişə ocaqları mövcuddur.**

Son iki ayda müxtəlif regionlarda alovlanan münaqişələr, artan nüvə təhdidləri və diplomatik böhranlar həm regional, həm də qlobal sabitliyə ciddi təzyiqlər göstərib. İlk olaraq 2025-ci ilin iyul ayında Konqonun Rutshuru bölgəsində M23 silahlı qruplaşması tərəfindən törədilən hücumlar nəticəsində ən azı 319 mülki vətəndaş qətlə yetirilib. Qurbanlar arasında qadınlar və uşaqlar da var idi. BMT bu hücumu "soyqırım potensialı daşıyan" bir akt kimi qiymətləndirib. Bu hadisədən sonra Qətərdə keçirilən danışıqlarda tərəflər arasında atəşkəs əldə edilib. Lakin M23-in strateji ərazilərdən geri çəkilməsi və sülh prosesinə sadiqliyi hələ də ciddi suallar doğurur. 27 iyulda Konqonun Komanda şəhərində Saint Anuarite kilsəsinə edilən silahlı basqın nəticəsində 43-50 mülki şəxs həyatını itirib. Hücumun arxasında İslam Dövləti ilə əlaqəli ADF-Baluku qruplaşmasının dayandığı bildirilib. Bu hücum ölkədəki dini icmalar arasında narahatlığı daha da artırıb.

Sudanda 2023-cü ildən bəri davam edən vətəndaş müharibəsi ölkəni humanitar fəlakətə sürükləməkdə davam edir. İyul-avqust aylarında yeni kütləvi hadisələr qeydə alınmasa da, 14 milyondan çox insan evini tərk etmiş, 150,000 nəfərdən çox insan isə həyatını itirmiş vəziyyətdədir. Hazırda aclıq və epidemiyalar bölgədə yayılmaqda davam edir. 2025-ci ilin yay aylarında İsrail və Qəzza zolağında hərbi əməliyyatların intensivliyi əvvəlki dövrlərlə müqayisədə azalsa da, vəziyyət hələ də qeyri-sabitdir. Qəzzada aclıq və infrastruktur dağıntıları davam edir. Suriya daxilində, xüsusən də Suveyda bölgəsində dini və etnik qruplar arasında gərginliklər ara-sıra yenidən alovlanır.

İyulun sonlarında və avqustun əvvəlində ABŞ iki nüvə sualtı qayığını Rusiyaya yaxın əraziyə göndərib və Prezident Donald Tramp "nüvə müharibəsinə tam hazır olduqlarını" bəyan edib. Bu addım Rusiya tərəfindən təxribat kimi qiymətləndirilib. Cavab olaraq, Rusiya 1987-ci ildə imzalanmış INF (Orta Menzilli Nüvə Silahları) müqaviləsindən çıxdığını açıqlayıb. Bu isə yeni nüvə silahlanması yarışının başlanması təhlükəsini artırır. Ekspertlər 2026-cı ildən sonra nüvə müharibəsi riskinin daha real olacağını proqnozlaşdırırlar.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp 50 gün ərzində Ukrayna ilə bağlı razılaşma əldə olunmayacağı təqdirdə Rusiya və onun ticarət tərəfdaşlarına qarşı 100 faizlik gömrük rüsumları tətbiq edəcəyinə söz vermişdi. Avqustun 8-i, yəni bu gün həmin vədə bitir. Bəs nəticə necə oldu?

**Siyasi analitik Aqşin Kərimov "Yeni Müsavat"a bu barədə şərh verərkən bildirib ki, Donald Trampın Vladimir Putinə vaxt limiti qoymasından sonra ABŞ Rusiyaya yaxın ərazi sularında iki atom sualtı gəminin yerləşdiriləcəyini bəyan edib:** "ABŞ-ın bu addımı Rusiyanı müharibə məqsədlərindən çəkindirmir, lakin Kreml ekstremal vəziyyətlərə uyğun davranmaq məcburiyyətində qalır. Kreml Trampın sualtı qayıqları yerləşdirmək qərarına cavab vermək üçün ehtiyatlı ritorik çərçivədən istifadə edir. Kremlə görə, Trampın bu qərarı daha çox 'emosional' xarakter daşıyır. Ehtimal olunur ki, ABŞ-ın bu addımı Rusiya üçün birbaşa təhlükə yaratmır. Lakin Ukrayna müharibəsinin həllində Vaşinqtonun çəkindirici səyləri Moskvanı qıcıqlandırır. Digər tərəfdən isə Rusiya Trampın bu mövqeyini uzlaşma siqnalı kimi qiymətləndirir.

Bu xəbərdarlıqlardan sonra Trampın Yaxın Şərq üzrə elçisi Stiv Uitkofun avqustun 6-da Putinlə görüşü yeni perspektivləri üzə çıxarır. Birincisi, Tramp yaxın həftələrdə həm Vladimir Putin, həm də Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşməyi planlaşdırır. İnformasiya lentlərinin təhlili bunu deməyə əsas verir. İkincisi, Donald Tramp Ukrayna məsələsində Rusiya ilə müəyyən razılaşmalar müqabilində Yaxın Şərqdə güzəştlər əldə etməyə çalışacaq. Üçüncüsü isə danışıqlar baş tutmasa və ya nəticəsiz qalarsa, ABŞ Ukraynaya hərbi dəstək paketini gücləndirəcək və eyni zamanda Rusiya daxilində kəşfiyyat imkanlarını genişləndirmək istiqamətində addımlar atacaq".

Onu da qeyd edək ki, qlobal ticarət gərginlikləri də artmaqdadır. Donald Tramp administrasiyası tərəfindən avqustun 6-da Hindistandan idxal olunan mallara əlavə 25% vergi tətbiq olunub. Bu qərar artıq Çinə, Tayvana və digər Asiya ölkələrinə qarşı tətbiq edilən ticarət tariflərinə əlavə kimi qəbul edilib. Tramp bu addımı "Amerikanın strateji iqtisadi təhlükəsizliyini qorumaq" məqsədilə atdığını bildirsə də, qlobal bazarlarda ciddi narahatlıq yaradıb.

Nəticə etibarilə deyə bilərik ki, son bir ayda dünyada baş verən münaqişələr və diplomatik böhranlar göstərdi ki, qlobal sabitlik ciddi təhdid altındadır. Afrika, Yaxın Şərq və Asiya regionlarında baş verən qarşıdurmalar artıq lokal deyil, qlobal nəticələr doğura biləcək səviyyədədir. Xüsusilə ABŞ və Rusiya arasında artan nüvə gərginliyi, eyni zamanda Tramp-Putin görüşünün nəticələri dünyanın gələcək taleyini müəyyən edə biləcək strateji məqamlar kimi dəyərləndirilir. Belə bir dövrdə beynəlxalq təşkilatların və böyük güclərin koordinasiyalı və rasional davranması həyati əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Azərbaycanın nə qədər taxıl ehtiyatı var?

## Ekspert deyir ki, gələcəkdə taxıl tədarükündə risklər mövcuddur



**2025-ci ilin ilk 6 ayı ərzində əvvəlki illərlə müqayisədə Azərbaycanın taxıl idxalı iki dəfə artıb. Eyni zamanda ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə daxilində taxıl istehsalında da artım müşahidə olunub.**

Mövzu ilə bağlı **Liberal İqtisadçılar Birliyinin sədri Akif Nəsirli** Modern.az-a açıqlamasında bildirib ki, Azərbaycana hər il təxminən 1.2-1.3 milyon ton taxıl idxal edilir:

"Bu göstərici artıq bir neçə ildir ki, ciddi dəyişiklik olmadan sabit qalır. Ölkənin ümumi taxıl tələbatının 80-90%-i məhz idxal olunan ərzaqlıq buğda hesabına ödənilir. Qalan 10-20% isə yerli istehsalın payına düşür".

**O əlavə edib ki, Azərbaycanın əsas taxıl idxal etdiyi ölkə Rusiyadır:** "Taxıl idxalının təxminən 90%-i bu ölkənin payına düşür. Qazaxıstan və Ukraynadan da taxıl idxal olunur, lakin bu ölkələrin ümumi idxaldakı payı 10-15%-dən artıq deyil. Belə bir vəziyyətdə yalnız bir ölkədən - xüsusilə də Rusiyadan bu qədər asılı olmaq strateji baxımdan risklidir. Sözügedən məsələni gündəmə gətirərək iki əsas alternativi təklif etmək mümkündür: ya Azərbaycan daxili istehsalı artıraraq idxaldan asılılığı minimuma endirməlidir, ya da idxal mənbələrini şaxələndirməli, yəni diversifikasiya etməlidir".

**A.Nəsirli onu da qeyd edib ki, son zamanlar Rusiya ilə Azərbaycan arasında siyasi münasibətlərin gərginləşməsi fonunda iqtisadi əlaqələrdə də müəyyən zəifləmə müşahidə olunur:** "Azərbaycanın bəzi məhsulları Rusiya sərhədlərindən geri qaytarılır. Əgər bu gərginlik daha da dərinləşərsə, Rusiya Azərbaycana taxıl ixracını dayandıra bilər. Belə bir halda ölkədə qısamüddətli ərzaq şoku yaşana bilər.

Doğrudur, dünya bazarlarında taxıl bolluğu mövcuddur və Azərbaycan alternativ bazarlardan da taxıl ala bilər. Bu, müəyyən qədər baha başa gəlsə də, mümkündür və strateji baxımdan daha təhlükəsiz seçim ola bilər".

**O, həmçinin vurğulayıb ki, bu gün üçün taxıl tədarükündə ciddi bir problem görünməsə də, gələcək risklər mövcuddur:** "Azərbaycanın hazırda təxminən 700-800 min ton taxıl ehtiyatı var ki, bu da təxminən 7-8 ay əhalinin tələbatını qarşılamaq üçün kifayətdir. Lakin psixoloji təsirlər və ictimai ajiotaj yarana bilər.

Buna görə də hesab edirəm ki, Azərbaycan bu riskləri nəzərə alaraq həm daxili istehsalın artırılması, həm də idxalın mənbələrinin şaxələndirilməsi istiqamətində tədbirlər görməlidir".

YENİ MÜSAVAT
Son səhifə
N 138 (8748) 8 avqust 2025

## Bunları bilirsinizmi?

* Dinamitin hazırlanmasında yer fındığından istifadə olunur.
* Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
* Las-Veqas kazinolarında saat olmur.
* Qarışqa digər canlılarla müqayisədə ən böyük beyinə malikdir. Təbii ki, bədəni ilə müqayisədə.
* Məşhur nağıl yazarı Hans Xristian Anderson demək olar ki, bir sözü belə savadlı yaza bilmirmiş.
* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
* Orta hesabla insan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.
* Tualet kağızı 1857-ci ildə icad edilib.
* Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
* Xokkey şaybasının atılma sürəti saatda 160 km. çata bilər.

Avqust



## Dünyanın hər yerində çimərliklər yox ola bilər

**Dünyanın müxtəlif bölgələrində çimərliklər sahil zolağının eroziyası səbəbindən yox olmaq təhlükəsi ilə üz-üzədir, çünki qumun yuyulması ilə bağlı bunun qarşısının alınması çətindir. Bu barədə "Financial Times" (FT) nəşri yazıb. "Mayamidən Barselonaya və Avstraliyanın Qızıl Sahilinə qədər səlahiyyətlilər sahil zolağının gələcək illərdə yuyulmaqdan necə xilas etməyin yollarını düşünürlər. Eroziyanın bir hissəsi təbii səbəblərdən qaynaqlanır. Fırtınalar, güclü qabarma və antropogen qlobal istiləşmə səbəbindən dəniz səviyyəsinin qalxması ilə vəziyyət daha da ağırlaşır ki, bu da buzlaqların ərimısinə gətirib çıxarır", - deyə nəşr bildirib.**

Sahil zolağının bərpası üçün süni şəkildə qum daşınır ki, bu, daşqınlara qarşı təbii müdafiə kimi xidmət edir. Bununla belə, qumun qiyməti qalxır, tikinti və digər sənaye sahələrində yüksək tələbat səbəbindən təklif azalır. ABŞ-ın Rodante şəhərində 2020-ci ildən bəri sahil eroziyası nəticəsində 11 ev okeana uçub. Yerli hakimiyyət hesab edir ki, çimərliklərin bərpası üçün 40 milyon dollardan çox vəsait tələb olunacaq, şəhərin isə belə bir vəsaiti yoxdur.

Qəzet qeyd edir ki, Barselona sahil zolağı ildə 30 min kubmetr qum itirir ki, bu da 12 olimpiya hovuzunun həcminə bərabərdir. Qəzetin yazdığına görə, eroziyadan müdafiə üçün görülən tədbirlərə baxmayaraq, bəzi çimərliklər "tamamilə yox ola bilərlər".

# "Pişik paraziti" insanın davranışını idarə edə bilər



**Pişiklərin dünya əhalisinin 60%-nə qədərini yoluxdurduğu "Toxoplasma gondii" paraziti insan beyninə nüfuz edə və nəzərə çarpmadan onun davranışına təsir göstərə bilər. Bu qənaətə Qərb alimləri gəliblər. Alimlərin fikrincə, bu, belə işləyir: parazit dofaminin - həzz hormonunun ifrazını stimullaşdırır. Nəticədə, beyin təkcə yemək və ya yatmaq kimi faydalı hərəkətləri deyil, həmçinin riskli olanları - aqressiya, impulsiv qərarlar və hətta təhlükəli cinsi əlaqələri də təşviq etməyə başlayır.**

Əsas infeksiya mənbəyi isə pişiklərdir. Məhz onların orqanizmində parazit çoxalır və ətraf mühitə yayılır. Heyvanla, onun lotoku ilə (pişik üçün tualet, qum lotoku) və ya çiy ətlə təmas vasitəsilə yoluxmaq mümkündür. Alimlər hesab edirlər ki, "Toxoplasma gondii" paraziti hissolunmaz şəkildə şəxsiyyəti dəyişdirməyə, riskə, narahatlığa və hətta psixi pozğunluqlara meyilliyi artırmağa qadirdir.

## Ölmüş bilirdilər, dirildi: ABŞ-lı qadın orqanlarının çıxarılması əməliyyatından əvvəl ayıldı



**ABŞ-da qeyri-adi hadisə yaşanıb. Komada olan qadın orqanlarının donor kimi çıxarılmasına bir dəqiqə qalmış ayılıb. Məlumata görə, Danella Qalyegos adlı qadın evsiz olub və təcili tibbi yardıma ehtiyac duyduqdan sonra komaya düşüb. Həkimlər onun sağ qalma şansının olmadığını bildirdikdə, ailəsi qadının orqanlarını donor kimi bağışlamağa qərar verib.**

Hazırlıq prosesi Nyu-Meksiko Donor Xidməti vasitəsilə həyata keçirilib. Əməliyyatdan əvvəl ailə üzvləri Danellanın gözlərində yaş gördüklərini bildiriblər, lakin həkimlər bunu sadəcə refleks hesab ediblər. Orqanların çıxarılması planlaşdırılan gün qadının bacısı onun hərəkət etdiyini müşahidə edib. Əməliyyata cəmi bir neçə dəqiqə qalmış isə Danella tibbi heyətin göstərişi ilə gözlərini qırpmağa başlayıb.

Orqan nəqli üzrə koordinator prosedurun davam etdirilməsində israr etsə də, həkimlər Danellanı əməliyyat otağından çıxarıb və onun həyatını xilas ediblər. Hazırda qadının vəziyyəti sabitdir və o, bərpa prosesini davam etdirir.

## İnsan bu yaşa çatanda ehtiyatlı olmalıdır

**İnsan həyatı boyu müxtəlif yaş dönəmlərində krizlər keçirə bilər.**

Professor Devid Blençflauer insanın özünü ən depressiv hiss etdiyi yaşla bağlı açıqlama verib.

"Elmi araşdırmalar göstərib ki, 50 yaşa 2-3 il qalmış ən bədbəxt hiss edilən yaşdır. Aparılan sorğular dünyada 80% insanın daha çox 47 yaşda özünü bədbəxt hiss etdiyini sübut edib. Məlumatlar 132 müxtəlif ölkənin bazalarından götürülüb. Təhsil, iş, ailə vəziyyəti nəzərə alınaraq, əminliklə deyə bilərik ki, yaşa görə xoşbəxtlik qrafikində ən aşağı nöqtə 47 yaş və 2 aydadır.

Bu dönəmi orta yaş krizi adlandırmaq olar. Bundan sonra insan özünü yaxşı hiss edir və həyat daha şən olur. Belə bir effekt dünyanın bütün ölkələrində, istər zəngin, istər yoxsul əhali arasında eynidir. Alimlər hesab edir ki, məhz bu yaşda artıq insan fizioloji, mənəvi olaraq qocaldığını hiss edir. Qocalmaq qarşısında qorxu depressiya və ümidsizlik gətirir. Əgər siz bu nöqtədəsizsə, bilin ki, tək deyilsiniz və bundan sonrası daha yaxşı olacaq.

Krizdən çıxmaq üçün aktiv olaraq özünüzlə məşğul olmalı, təbiətdə, səyahətlərdə olmalı, yaxşı qidalanmalısız. Müasir insan üçün 47 qocalıq yox, elə orta yaşın başlanğıcıdır", - professor qeyd edib.

## Gündə cəmi bir dilim kolbasa 11 xəstəlik riski yaradır - həkimdən ciddi xəbərdarlıq



**Kardioloq Mariya Çaykovskaya gündəlik qidalanma ilə bağlı təhlükəli bir vərdişə diqqət çəkib. Onun sözlərinə görə, sadəcə, bir dilim kolbasa belə ciddi sağlamlıq problemlərinə səbəb ola bilər.**

Mütəxəssis bildirir ki, bu məhsulun müntəzəm istehlakı 11 fərqli xəstəlik riskini artırır. Bunlar arasında ən təhlükəliləri:

**Yoğun bağırsaq və ağciyər xərçəngi**
**Hipertoniya**
**Damar iltihabı**
**Ateroskleroz**
**Ürəyin işemik xəstəliyi**
**Demensiya**
**Şəkərli diabet**
**Piylənmə**
**Böyrək problemləri**
**Nevroloji pozuntular**

**Kolbasada nə qədər "ət" var?**

Çaykovskaya vurğulayıb ki, bazarda satılan kolbasaların əksəriyyətində əsl ətin miqdarı olduqca azdır - təxminən 15-20 faiz. Qalan hissə isə əsasən sakatat, soya, nişasta və müxtəlif kimyəvi qatqılardan ibarətdir. Bu tərkib həm məhsulun keyfiyyətini, həm də sağlamlığa təsirini ciddi şəkildə şübhə altına salır.

**Təbii əti seçin**

Kardioloq alternativ olaraq kolbasa və salam kimi emal olunmuş məhsulların yerinə təbii ət məhsullarının - məsələn, evdə bişmiş toyuq əti və ya doğranmış mal ətinin - istifadə edilməsini tövsiyə edir. Onun fikrincə, real ət həm qida dəyəri, həm də orqanizmə təsiri baxımından daha sağlam və təhlükəsiz seçimdir.

"Sürətli, lakin tərkibi məlum olmayan qidalar sağlamlığımıza yavaş-yavaş zərbə vurur. Uzunmüddətli təsirlərini nəzərə alaraq seçimlərimizi daha şüurlu etməliyik", - deyə Çaykovskaya xəbərdarlıq edib.

Daimi kolbasa istifadəsi görünməz risklər daşıyır. Sağlam qalmaq üçün emal olunmuş ət məhsullarından uzaq durmaq və təbii qidaları üstün tutmaq vacibdir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.